AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 NOYABR 2018-ci il BAZAR № 258 (6291) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Latviya Respublikasının Prezidenti Zati-aliləri cənab Raymonds Veyonisə

Hörmətli cənab Prezident,

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Latviya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı siyasi, iqtisadi və mədəni əlaqələr xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

## Omanın Sultanı Əlahəzrət Qabus bin Səidə

Əlahəzrət,

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

## “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1110-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 19; 2001, N 12, maddə 736; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 8, maddə 599, N 10, maddə 787; 2005, N 8, maddə 686; 2006, N 12, maddə 1005; 2007, N 4, maddə 322; 2009, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 5, maddə 375; 2011, N 2, maddə 71, N 6, maddə 478; 2013, N 11, maddə 1272; 2017, N 11, maddə 1977; 2018, N 2, maddə 148) 4-cü maddəsinin II hissəsinə “təqsirləndirilən şəxsin müdafiəsi,” sözlərindən sonra “məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1258-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1258-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 23, maddə 996; 1993, N 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 5, maddə 251; 2003, N 12, I kitab, maddə 677; 2005, N 4, maddə 291; 2006, N 10, maddə 846; 2007, N 3, maddə 213; 2008, N 6, maddələr 452, 472; 2009, N 1, maddə 4, N 5, maddə 312, N 7, maddələr 514, 515, N 12, maddə 974; 2010, N 3, maddə 174, N 11, maddə 960; 2011, N 11, maddə 992; 2012, N 7, maddə 664, N 11, maddələr 1036, 1048, 1061; 2013, N 5, maddələr 460, 478, N 10, maddə 1143, N 12, maddə 1477; 2014, N 6, maddələr 612, 623; 2015, N 12, maddə 1447; 2016, N 12, maddələr 1979, 2040; 2017, N 1, maddələr 16, 27, N 7, maddə 1311, N 10, maddə 1771; N 11, maddə 1962, N 12, I kitab, maddələr 2242, 2269; 2018, N 2, maddə 168, N 3, maddə 387, N 5, maddələr 841, 859, 874, N 6, maddə 1190) 2-ci maddəsində “Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 95 illiyi (1919-2014)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” yubiley medalı;”.

Maddə 2. “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur).*

Maddə 3. “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin *(əlavə olunur).*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

*“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” və “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” qəzetin 2-ci səhifəsində dərc olunur.*

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (19192019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (19192019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanları” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur.

**4.** “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəislərinə verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

## “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, N 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 12, maddə 1028; 2008, N 12, maddə 1057; 2011, N 1, maddə 21) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri:**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri;

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini;

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavinləri;

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Aparatının baş idarə rəisləri;

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının İnsan Resursları idarəsinin rəisi;

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının Hüquqi təminat idarəsinin rəisi;

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri;

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi;

Bakı Baş Gömrük İdarəsinin rəisi;

Sumqayıt Baş Gömrük İdarəsinin rəisi.”.

**2.** 2-ci hissə ləğv edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

# Aqrar sektorda aparılan islahatlar

### *Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək*

**Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyev bildirib ki, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir: “Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir”.**

Hazırda ölkədə aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsaiti qoyulub. 111 milyon manat dövlət güzəştli krediti və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. Dövlət başçısı cənab İlham Əliyevin iştirakı ilə bu aqroparklardan 4-ü istifadəyə verilib. İlin sonuna qədər istifadəyə verilən aqroparkların sayı 13-ə çatacaqdır.



Kənd təsərrüfatı sahəsində aparılan islahatların daha da böyük nəticələrə çatmağa imkan verəcəyini diqqətə çatdıran cənab İlham Əliyev bildirib ki, doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Göründüyü kimi, texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb. Hazırda Kənd Təsərrüfatı Nazirliyi çox əhəmiyyətli islahatlar aparır.

**(davamı 3-cü səhifədə)**

*Azərbaycan Respublikasının*
*2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı haqqında

# ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında xidməti vəzifələrini həyata keçirərkən yüksək nəticələr əldə edən, Azərbaycan Respublikasının milli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətində, dövlət sirrinin mühafizəsində, cinayətkarlığa qarşı mübarizədə fərqlənən hərbi qulluqçular, mülki işçilər, veteranlar, habelə milli təhlükəsizliyin təmin olunmasında fəal iştirak edən, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanları təltif edirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 95 illiyi (1919-2014)" Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

---

*Azərbaycan Respublikasının*
*2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsviri




**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan, hər tərəfə şüalar saçan səkkizguşəli ulduz kompozisiyalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

Medalın ön tərəfində xarici və daxili çevrələrlə əhatə olunmuş lövhə yerləşir. Diametri 26 mm olan xarici çevrə ilə diametri 20 mm olan daxili çevrənin arasında yuxarı qövs boyunca həkk olunmuş "AZƏRBAYCAN RESPUBLİKASI" sözlərini hər iki tərəfdən tamamlayan iki ədəd səkkizguşəli ulduz vardır. Alt hissədə ortada palıd yarpaqları təsvir olunmuş, sol tərəfdə qövs boyunca aşağıdan yuxarıya doğru "1919", sağ tərəfdə qövs boyunca yuxarıdan aşağıya doğru "2019" rəqəmləri, göy rəngli mərkəzi dairənin üzərində isə "DÖVLƏT TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ KƏŞFİYYAT ORQANLARI 100 İL" sözləri yazılmışdır. Səkkizguşəli ulduz və onun şüaları, çevrələrin konturları, palıd yarpaqları və bütün yazılar relyefli olmaqla qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfinin səthi hamardır, orta hissəsində "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ KƏŞFİYYAT ORQANLARI 1919-2019" sözləri, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı lövhəyə ilgək və iki halqa vasitəsilə birləşdirilir. Lövhəyə üzərində kənarlardan mərkəzə doğru ardıcıl olaraq 4,25 mm enində mavi, 1,5 mm enində qızılı, 4,25 mm enində mavi zolaqlar, mərkəzdə isə 17 mm enində göy rəngli şaquli zolaq təsvir edilən xara lent çəkilmişdir. Xara lentin yuxarı hissəsinə üzərində ulduz, aypara və dalğalı lent təsvir olunan 40 mm x 5,5 mm ölçülü düzbucaqlı lövhə bərkidilmişdir. Ulduz, aypara və lent təsvirləri relyeflidir.

4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

---

*Fransa XİN:*

# Rəsmi Paris özünü respublika elan etmiş Dağlıq Qarabağı tanımır

**Fransa özünü respublika elan etmiş Dağlıq Qarabağı tanımır. Özlərini onun təmsilçiləri kimi təqdim edənlərlə Fransa heç bir əlaqə saxlamır.**

Fransanın Azərbaycandakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, bu fikirlər Fransa Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Minsk qrupunun həmsədri kimi Fransa münaqişənin sülh yolu ilə və davamlı həlli üçün çalışır və özünün qərəzsiz vəzifəsinə tam riayət etməklə vasitəçilik missiyasını yerinə yetirir".

**AZƏRTAC**

---

*Prezident Administrasiyasının rəsmisi:*

# Azərbaycan ilə Belarus arasında xeyli sənəd imzalanacaq




**Yaxın günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa səfəri olacaq. Səfər çərçivəsində xeyli sənədin imzalanması nəzərdə tutulur. Bu cür yüksək səviyyəli səfərlər ölkələrimiz arasında intensiv xarakter daşıyır.**

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, bu gün Azərbaycanla Belarus arasında münasibətlər siyasi, iqtisadi, ticari, hərbi-texniki, mədəni, humanitar və digər sahələri əhatə edir. İki ölkə arasında ticarət dövriyyəsi davamlı olaraq artır. Azərbaycan Prezidentinin Belarusa səfəri ölkələrimiz arasındakı əlaqələrin inkişafına daha güclü təkan verəcək. Dövlətimizin başçısı bu günlərdə Belarusun Azərbaycandakı səfirini qəbul edərkən bu məsələlər geniş şəkildə müzakirə olunub.

**AZƏRTAC**

---

*Hikmət Hacıyev:*

# Fransanın hərəkətləri Minsk qrupunun həmsədr ölkəsi kimi üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır

**Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni əməllərin tərkib elementlərindən biri də həmin ərazilərdə yaradılan qondarma rejimin nümayəndələri kimi özünü təqdim edən şəxslərin bir sıra ölkələrə, xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrə səfər etmələridir.**

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə açıqlamasında Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, Fransa həmsədr ölkələrdən biridir, vasitəçilik institutunun mahiyyəti onu tələb edir ki, vasitəçi ölkə tarazlı münasibət göstərməlidir və bu kimi qərəzli addımların atılmasına imkan verməməlidir. Fransanın bəzi şəhərlərinin Azərbaycanın işğal olunmuş şəhərləri ilə "qardaşlaşma"sı, özünü qondarma rejimin rəhbəri kimi təqdim edən şəxsin Fransaya səfəri kimi hallar baş verir ki, bunlar Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır, bunun qarşısı alınmalıdır. Xarici İşlər Nazirliyinin açıqlamasında bildirildiyi kimi, Azərbaycanın diplomatik nümayəndəlikləri bu xüsusda Fransa tərəfinə ölkəmizin ciddi etirazını çatdıracaqlar. Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması da məsələyə münasibətini bildirib, əgər Bako Saakyan kimi bir şəxs Fransanın ərazisinə gedirsə, onda icmalara münasibətdə bərabərhüquqlu münasibət də təmin olunmalıdır. Hər iki icma bərabərhüquqludur. Əgər hər hansı icmaya xüsusi münasibət göstərilirsə və digərinin hüququna biganəlik nümayiş etdirilirsə bu, insan hüquqlarının kobud şəkildə pozulmasıdır. Fransa və digər dövlətlər münaqişənin həlli prosesinə töhfə vermək istəyirlərsə, ilk növbədə, Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları təmin olunmalıdır. Bu proses çərçivəsində isə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında dialoq təşviq edilməli və dəstəklənməlidir. Ona görə də həmsədr ölkələrin və beynəlxalq ictimaiyyətin bu istiqamətdə fəaliyyət göstərməsi faydalı olardı.

**AZƏRTAC**

---

# Bakıda Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərlə bağlı beynəlxalq konfrans keçirilib






**Noyabrın 17-də Bakıda "İşğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətlər və üçüncü tərəflərin məsuliyyəti" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) təşkilatçılığı ilə keçirilən konfransda Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərindəki qeyri-qanuni iqtisadi fəaliyyəti, təbii resursların qanunsuz şəkildə istismarı və bu kimi digər məsələlər yerli və xarici ekspertlər tərəfindən müzakirə edilib.

Konfransı açan SAM-ın direktoru Fərhad Məmmədov bildirib ki, işğal edilmiş Azərbaycan ərazilərində Ermənistan tərəfindən törədilən qanunazidd əməllər həmin əraziləri narkotiklərin qanunsuz dövriyyəsi və hətta terrorizm fəaliyyətinin mərkəzinə çevirib. Ermənistanın həyata keçirdiyi qeyri-qanuni fəaliyyət qonşu ölkələrin sabitliyini pozmaqla yanaşı, regional sülhə qarşı da açıq təhdid təşkil edir.

Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev konfransda çıxış edərək Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətə və həmin ərazilərdə beynəlxalq hüququn imperativ normalarının pozulması faktlarına diqqət çəkib, bu bölgələrin qanunsuz mal dövriyyəsi üçün tranzit məntəqəsinə çevrildiyini vurğulayıb. O qeyd edib ki, bu qeyri-qanuni fəaliyyətlər məqsədyönlü və qərəzli xarakter daşıyaraq işğal olunmuş ərazilərin ilhaqı məqsədini güdür. Azərbaycanın işğal olunmuş ərazilərində aparılan qeyri-qanuni fəaliyyətlər, nəticə etibarilə, münaqişənin həllində çox ciddi problemlər yaradır və Ermənistanın da əsl məqsədi bundan ibarətdir.

Bildirilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlərə baxsaq, burada bir neçə istiqaməti təsbit edə bilərik. Ən vacib problemlərdən biri ondan ibarətdir ki, işğal olunmuş ərazilərimizdə məqsədyönlü məskunlaşma siyasəti aparılır, yəni, demoqrafik vəziyyət məqsədyönlü şəkildə dəyişdirilir. Bundan başqa, Azərbaycanın işğal olunmuş ərazilərində təbii sərvətlərin, xüsusilə də mineral resursların talan edilməsi, qeyri-qanuni iqtisadi fəaliyyətlərin həyata keçirilməsi və çirkli pulların yuyulması faktları da qeyd edilməlidir. Digər qeyri-qanuni fəaliyyətlər Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişiklikləri, o cümlədən ölkəmizin telekommunikasiya şəbəkələrinin istismar edilməsi və qanunsuz telekommunikasiya fəaliyyətinin göstərilməsi, işğal altındakı ərazilərimizin mədəni xarakterinin dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi, dağıdılması, həmçinin mövcud maddi-mədəni, o cümlədən dini abidələrin memarlıq xüsusiyyətlərinin dəyişdirilməsi və onların erməniləşdirilməsi siyasətinin aparılmasıdır. Qeyri-qanuni fəaliyyətlərdən biri də işğal olunmuş ərazilərimizin turizm məkanı kimi təşviq edilməsi və oraya qeyri-qanuni səfərlərin həyata keçirilməsidir. Ermənistanın işğal və təcavüzü nəticəsində yaradılmış qondarma rejimi təşviq etmək və onun legitimləşdirilməsi kimi məqsədlər də güdülür.

Daha sonra italiyalı diplomat və ATƏM-in (hazırkı ATƏT) Minsk konfransının ilk sədri Mario Raffaelli Minsk qrupunun 25 ildən sonrakı fəaliyyətinə nəzər salaraq, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişafa nail olaraq etibarlı regional tərəfdaşa çevrildiyini xatırladıb.

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov qeyd edib ki, statistik məlumatlara əsasən, Dağlıq Qarabağ ərazisində qeyri-qanuni şəkildə hasil edilən qiymətli metal və daşların istehsalat həcmi 2014-cü illə müqayisədə 2017-ci ildə 1,8 dəfə artıb. Bu baxımdan təsadüfi deyil ki, Ermənistan rəsmilərinin açıqladığı məlumatlara görə, istər Qarabağı işğal etmiş erməni hərbi qüvvələrinin, istərsə də Ermənistan Respublikasının büdcə gəlirlərinin böyük bir həcmini mədən sənayesindən, xüsusilə qeyri-qanuni hasilat fəaliyyətindən əldə edilən gəlirlər və vergilər təşkil edir.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev Ermənistan tərəfinin işğal altındakı ərazilərin torpaq və bitki örtüyünü deqradasiyaya məruz qoymasını, qanunsuz şəkildə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olaraq həmin ərazilərdə tikililər ucaltmasını peyk vasitəsilə əldə edilmiş görüntü və xəritələr əsasında iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, peyk vasitəsilə əldə edilmiş görüntülərdən də müşahidə edilib ki, işğal altında olan ərazilərdəki tarixi abidələr dağıdılıb, həmin ərazilərdə yanğınlar törədilib. Statistik məlumata görə, ermənilər 2015-ci ildə 728 kvadratkilometr, 2018-ci ildə isə 480 kvadratkilometr ərazidə yanğınlar törədiblər. İşğal altında olan ərazilərdəki meşə massivinin beş faizi bu il məhv edilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva bildirib ki, Azərbaycan qanunvericiliyinə görə, ölkə ərazisində yalnız dövlət qeydiyyatından keçən şəxslər və şirkətlər biznes fəaliyyəti ilə məşğul ola bilərlər. Amma bəzi xarici şirkətlər var ki, qanunsuz olaraq dövlət sərhədlərimizi pozaraq işğal olunmuş ərazilərimizdə fəaliyyət göstərirlər. Həmin şirkətlər təbii ehtiyatlarımızı qanunsuz istismar edərək ekoloji tarazlığı pozurlar. Bundan başqa, Ermənistan qeyri-qanuni yolla Yaxın Şərqdən, xüsusilə də Suriyadan işğal altındakı ərazilərimizə köç həyata keçirir.

Baş Prokurorluğun idarə rəisinin müavini Vüqar Nəsibov deyib ki, "AzerGold" QSC-nin İdarə Heyəti tərəfindən təqdim edilən materiallar üzrə aparılan araşdırmadan məlum olub ki, Ermənistanda və digər xarici ölkələrdə qeydiyyatdan keçmiş "Vallex Yeroup", "Base Metals", "Lerna" Metallurgiya İnstitutu və digər xarici şirkətlərin rəhbərləri dəfələrlə Azərbaycan Respublikasının sərhədlərini qanunsuz keçərək Kəlbəcər, Zəngilan rayonlarındakı qızıl yataqlarının istismarı ilə məşğul olublar. Fakt üzrə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən cinayət işi qaldırılıb. Bundan başqa, işğalçılar tərəfindən əlavə metallar, tikinti materialları, mineral ehtiyatlar və nadir bitki örtüyü qanunsuz olaraq ölkədən çıxarılıb və məhv edilib.

Sonra SAM-ın iqtisadiyyatın təhlili şöbəsinin aparıcı elmi işçisi Mahir Hümbətov Mərkəz tərəfindən yaxınlarda Litvada nəşr edilən və Ermənistanın qanunsuz fəaliyyətlərinin hidroloji və ekoloji aspektlərinə aydınlıq gətirən "Dünyaya təhdid: Hidroloji cinayət və ekoloji soyqırımı" kitabına dair qısaca məlumat verərək, Ermənistanın birbaşa region ölkələrinə, lakin dolayısı ilə bütün dünyaya qarşı ekoloji təhlükə kəsb etdiyini bildirib. O, qeyd edilən məqamların ingilis dilində nəşr edilən kitabda əksini tapdığını söyləyib.

Konfrans sual-cavab sessiyası ilə başa çatıb.

**AZƏRTAC**

---

*Jan-Lük Retser:*

# Fransanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və qüvvədə olan qaydalara riayət etməsi vacibdir

*Fransa Milli Assambleyasının xarici məsələlər komissiyasının üzvü Sent-Etiyen şəhərinin merinə etiraz məktubu göndərib*

**Fransa Milli Assambleyasının xarici məsələlər komissiyasının üzvü, Fransa-Azərbaycan dostluq qrupunun katibi, deputat Jan-Lük Retser "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin məktubu əsasında Azərbaycanın işğal altındakı Şuşa şəhəri ilə Fransanın Sent-Etiyen şəhəri arasında dostluq haqqında bəyanatın imzalanmasına dair bu şəhərin meri Qael Perdrioya etiraz məktubu göndərib.**

İctimai Birliyin Əlaqələndirmə Şurasının sədri, professor Elçin Əhmədov AZƏRTAC-a bildirib ki, məktubda adıçəkilən səfərin 2015-ci il iyulun 2-də Fransa hökuməti tərəfindən Xarici İşlər və Daxili İşlər nazirlikləri səviyyəsində imzalanan təmimi təlimata zidd olduğu göstərilir. Təlimatda yerli özünüidarəetmə qurumlarının beynəlxalq əməkdaşlıq sahəsində səlahiyyət məhdudiyyətlərinə dair xəbərdarlıq edilir, mərkəzi hakimiyyətin siyasətinə və Fransanın beynəlxalq öhdəliklərinə zidd olaraq, yerli orqanların Fransa hökumətinin tanımadığı qeyri-qanuni rejimlər, o cümlədən qondarma Dağlıq Qarabağla beynəlxalq əməkdaşlığa dair sənədlər imzalamasına qadağa qoyulur.



Məktubda, eyni zamanda, qeyd edilir ki, Fransanın Seynt-Etiyen şəhərinin meri Qael Perdrio bu qanunsuz səfərlə və imzalanmış dostluq haqqında bəyanatla Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Azərbaycan ərazilərinin işğalını dəstəkləyir, Fransa hökumətinin 2015-ci il 2 iyul tarixli təmimi təlimatını və BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozur. Eyni zamanda, 1992-ci il mayın 8-də Azərbaycanın qədim Şuşa şəhərinin işğal olunduğu, işğal nəticəsində Şuşa şəhəri və rayonun 30 kəndinin dağıdıldığı, 195 dinc sakinin həlak olduğu, 165 nəfərin yaralandığı, 58 nəfərin itkin düşdüyü, 24 mindən çox əhalinin etnik təmizləməyə məruz qaldığı vurğulanır.

Jan-Lük Retser məktubunda Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan və təhqir edilməsi, mənimsənilməsi kimi məqsədli siyasəti çərçivəsində yalnız Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidənin dağıdıldığını, məbədgah və məscidlərin təhqir və vandalizmə məruz qaldığını yazır. O, bunların içərisində Pənah xanın sarayı və kitabxanasını, Xan sarayını və Karvansarayı, Yuxarı və Aşağı Gövhərağa, Saatlı məscidləri, Vaqifin Mavzoleyi, Natəvanın evi və digər abidələri qeyd edir. Bundan əlavə, Jan-Lük Retser xatırladır ki, iki ölkə arasında münaqişənin həllinin fundamental əsaslarını 1993-cü ildə qəbul edilmiş, işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT qətnamələri təşkil edir.

Məktubda o da vurğulanır ki, regionda uzunmüddətli sülhün və ədalətin bərqərar olması üçün Fransanın və mövcud vəziyyətdə yerli özünüidarəetmə qurumlarının BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və qüvvədə olan qaydalara riayət etməsi vacibdir.

**AZƏRTAC**

# Doqquz ayda Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 450 milyon dollar olub



**2018-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 450 milyon dollar təşkil edib.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Gürcüstanın maliyyə naziri İvane Maçavarianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Görüşdən əvvəl Gürcüstan nümayəndə heyəti Bakı Biznes Mərkəzində Azərbaycan iqtisadiyyatına dair məlumatların əks olunduğu stendlərlə tanış olub, qonaqlara ölkə iqtisadiyyatı barədə məlumat verilib.

Azərbaycan-Gürcüstan iqtisadi əlaqələrinə və əməkdaşlıq imkanlarına dair geniş fikir mübadiləsinin aparıldığı görüşdə nazir Şahin Mustafayev ölkələrimizi tarixi dostluq, mehriban qonşuluq əlaqələrinin birləşdirdiyini, siyasi münasibətlərin yüksək səviyyədə olduğunu, 1997-ci ildə strateji tərəfdaşlıq haqqında Sazişin imzalandığını vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan-Gürcüstan əməkdaşlığının əsas istiqamətlərindən olan ticarət əlaqələri inkişaf edir. 2017-ci ildə Azərbaycan və Gürcüstan arasında ticarət dövriyyəsi 545 milyon dollar olub, ixrac 13 faiz artıb. 2018-ci ilin yanvar-sentyabr aylarında isə ölkələrimiz arasında ticarət dövriyyəsi 450 milyon dollar təşkil edib və ixrac 8 faiz artıb. 1995-2018-ci illərdə Gürcüstan Azərbaycan iqtisadiyyatına 93,8 milyon dollar, Azərbaycan isə Gürcüstana 3 milyard ABŞ dollarından çox investisiya yatırıb. Gürcüstana yatırılan investisiyaların həcminə görə ölkəmiz 2012-ci ildən etibarən 1-ci yerdədir. Azərbaycanda 300-dən çox Gürcüstan şirkəti qeydiyyata alınıb, 650-yə yaxın Azərbaycan sərmayəli şirkət, xüsusilə SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. İş adamlarının iştirakı ilə mütəmadi birgə biznes forumlar, işgüzar görüşlər və digər tədbirlər keçirilir.

Enerji sahəsi Azərbaycan-Gürcüstan əməkdaşlığının əsas istiqamətlərindəndir və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi kimi iri layihələr bu əməkdaşlığın çox uğurlu nümunələridir.

Nəqliyyat-tranzit sahəsində əməkdaşlığa gəlincə, nazir Şahin Mustafayev Bakı-Tbilisi-Qars dəmir yolunun xüsusi əhəmiyyətini vurğulayıb, Azərbaycanın təşkilatçılığı, Türkiyə, Gürcüstan və Qazaxıstanın iştirakı ilə "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi"nə dair bu ilin əvvəlində Çində təqdimatların keçirildiyini xatırladıb, belə bir təqdimatın Bakıda keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib. İqtisadiyyat naziri Azərbaycan üzərindən keçməklə yükdaşımaların artırılmasına, nəqliyyat-tranzit, turizm, kiçik və orta sahibkarlıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarına dair fikirlərini bildirib.

Gürcüstanın maliyyə naziri İvane Maçavariani ölkələrimiz arasında qarşılıqlı dostluq münasibətlərini, iqtisadi sahədə əlaqələrin inkişafını, beynəlxalq əhəmiyyətli iri enerji və nəqliyyat layihələrində ölkələrimizin əməkdaşlığını vurğulayıb. Azərbaycan və Gürcüstanın iştirakı ilə "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi"nə dair daha bir təqdimatın keçirilməsinin regionun nəqliyyat-tranzit potensialının təbliği baxımdan önəmli olacağını qeyd edən İvane Maçavariani ölkəsinin Azərbaycanla enerji, nəqliyyat-tranzit sahələri ilə yanaşı, sənaye, kənd təsərrüfatı, turizm və s. sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyib, SOCAR-ın Gürcüstandakı fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə maliyyə, nəqliyyat-tranzit, gömrük, vergilər sahələrində əməkdaşlığın genişləndirilməsinə, Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın növbəti iclası çərçivəsində biznes forumun təşkilinə, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

**AZƏRTAC**

*XİN:*

# Qondarma qurumun ABŞ ərazisində təşviqi bu ölkənin Minsk qrupunun həmsədri kimi öhdəlikləri ilə ziddiyyət təşkil edir

**Kütləvi informasiya vasitələrində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" kimi özünü təqdim edən Bako Saakyanın Amerika Birləşmiş Ştatlarına səyahəti barədə məlumat verilir. Qondarma rejimin nümayəndəsinin ABŞ ərazisinə daxil olması və qondarma qurumun ABŞ ərazisində təşviqinə icazə verilməsi bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədri kimi üzərinə götürdüyü öhdəlikləri, eləcə də ABŞ-ın separatçı qondarma rejimin tanınmaması ilə bağlı dəfələrlə bəyan etdiyi rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada bildirilir.

Açıqlamada qeyd edilir ki, bu addım, həmçinin münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirir. "Separatçı rejimin nümayəndələrinə ABŞ tərəfindən viza verilməsi ABŞ-ın viza prosedurları barədə ciddi suallar doğurur. Qəribədir ki, ABŞ tərəfindən viza verilməsinin liberallaşdırılması yanaşması keçmiş Sovet İttifaqı məkanındakı digər qanunsuz qurumlara münasibətdə yox, yalnız Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma qurumun "rəhbərlərinə" münasibətdə tətbiq edilir.

Azərbaycan ərazilərinin işğalında və yüz minlərlə azərbaycanlıya qarşı etnik təmizləmənin həyata keçirilməsində əli olan, müharibə cinayətkarı olan bu kimi şəxslərə qarşı fərdi sanksiyalar tətbiq olunmalıdır.

Qondarma rejimin təşviqinə yönələn bu qəbildən olan addımlar ABŞ-ın Azərbaycanla münasibətlərdə səmimiliyi barədə suallar yaradır.

Diplomatik kanallarla Azərbaycanın qəti etirazı ABŞ tərəfinə çatdırılacaq",- deyə açıqlamada vurğulanır.

**AZƏRTAC**

# Azərbaycanın mədəniyyət naziri MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi ilə görüşüb

**Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev Sankt-Peterburqa səfəri çərçivəsində MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının baş katibi Yuri Osipov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Əbülfəs Qarayev və Azərbaycan nümayəndə heyətinin üzvləri ümummilli lider Heydər Əliyevin şəhərdəki Qoroxova küçəsi, 6 saylı binanın fasadına vurulmuş barelyefinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Qeyd edək ki, Ulu Öndər 1949-1950-ci illərdə bu binada yerləşən SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali Məktəbində təhsil alıb. Xatirə lövhəsinin açılışı 2013-cü il dekabrın 12-də keçirilib.

Tavriçeski sarayında Əbülfəs Qarayevlə Yuri Osipov arasında keçirilən görüşdə ölkələrimiz arasında münasibətlərin bütün istiqamətlərdə inkişaf etdiyi vurğulanıb.

Yuri Osipov bildirib ki, Parlamentlərarası Assambleya Sankt-Peterburqda yerləşən yeganə beynəlxalq təşkilatdır. Assambleya tarixi binada yerləşir, Tavriçeski sarayı ötən əsrin əvvəlində Rusiya imperiyasının ilk Dövlət Dumasının binası olub.

Nazir Əbülfəs Qarayev ölkəmizin bu beynəlxalq təşkilatla əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb, mədəniyyət sahəsində layihələrdə, təcrübə mübadiləsində xüsusilə maraqlı olduğunu diqqətə çatdırıb. Müasir kitabxana, mədəniyyət evləri, klublar, digər mədəniyyət obyektlərinin fəaliyyəti ilə bağlı ölkələrimizin keçmişdə oxşar təcrübəyə malik olduğunu deyən nazir, 2019-cu ilin MDB-də "Kitab İli" elan olunmasının əhəmiyyətini vurğulayıb. Bu çərçivədə kitabxanaların müasirləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin vacibliyi qeyd edilib. Həmçinin gənc yazarların ümumi nəşrinin hazırlanıb çap edilməsi təklif olunub.

Görüşdə MDB Parlamentlərarası Assambleyası Şurası baş katibin müavini, Azərbaycan Milli Məclisinin təşkilatdakı nümayəndəsi Aydın Cəfərov da iştirak edib.

Azərbaycan nümayəndə heyəti üçün Tavriçeski sarayının tarixi ilə bağlı qısa ekskursiya da təşkil olunub.

Nazir Əbülfəs Qarayev Sankt-Peterburqda, həmçinin dünya şöhrətli "Ermitaj" muzeyini ziyarət edib.

**AZƏRTAC**

# Aqrar sektorda aparılan islahatlar

***Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək***

**(əvvəli 1-ci səhifədə)**

Bu islahatlara tam dəstək verən dövlət başçısı vurğulayıb ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik.

Məlumat üçün bildirək ki, taxılçılıq sahəsində iri fermer təsərrüfatlarında çox yaxşı nəticələr əldə olunub. Bu təsərrüfatlarda tətbiq olunan texnoloji proseslərin böyük səmərə verdiyini hər hektardan orta hesabla 50 sentner məhsulun götürülməsi də təsdiq edir. Bütövlükdə, ölkədə 3 milyon ton taxıl tədarük olunub.

Hazırda kənd təsərrüfatı bitkilərinin yığımı davam edir. Oktyabr ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) 1051,4 min hektar əkin sahəsinin 1045,8 min hektarı biçilmiş və həmin sahələrdən 3049,6 min ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,6 faiz çox məhsul götürülmüşdür. Orta hesabla hər hektardan 29,2 sentner məhsul əldə edilmişdir. Bundan əlavə, 24,1 min hektar dən üçün qarğıdalı sahəsindən 151,0 min ton məhsul toplanmış, hər hektardan orta hesabla 62,7 sentner qarğıdalı dəni götürülmüşdür. Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3200,6 min ton olmuşdur. 2018-ci il oktyabr ayının 1-nə kimi sahələrdən 1298,1 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 6,3 faiz çox tərəvəz, 852,8 min ton (1,1 faiz az) kartof, 395,9 min ton (8,8 faiz az) bostan məhsulları, 588,2 min ton (6,3 faiz çox) meyvə və giləmeyvə, 111,2 min ton (1,4 faiz çox) üzüm, 736,3 ton (28,1 faiz çox) yaşıl çay yarpağı, 167,7 min ton (3,3 faiz az) şəkər çuğunduru, 43,8 min ton (19,8 faiz az) pambıq, 23,9 min ton (19,8 faiz az) dən üçün günəbaxan və 3,8 min ton (4 faiz çox) tütün yığılmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında diri çəkidə ət istehsalı 3,3 faiz artaraq 364,7 min ton, süd istehsalı 1,8 faiz artaraq 1550,8 min ton, yumurta istehsalı 0,6 faiz azalaraq 1295,9 milyon ədəd, yun istehsalı isə 0,7 faiz azalaraq 15,6 min ton olmuşdur. Bundan başqa, ölkədə 514 ton barama istehsal olunmuşdur ki, bu da son 20 ilin ən yüksək göstəricisidir.

2017-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4,3 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 5,8 faiz, heyvandarlıq məhsullarının istehsalı isə 2,7 faiz artmışdır.

Statistikaya diqqət yetirsək görərik ki, aqrar sektorun bir çox sahələrində böyük artım dinamikası var. Məsələn, 2016-cı ildə ölkədə 90 min ton pambıq tədarük edilmişdirsə, 2017-ci il 207 min ton, yəni 2 dəfədən çox məhsul götürülmüşdür. Bu il təqribən 250-260 min ton pambığın tədarükü nəzərdə tutulur. Üzümçülüyün, tütünçülüyün inkişafı, bu sahədəki məhsul artımı bir neçə il bundan əvvəlki illərlə müqayisədə çox yüksəkdir. Son bir neçə ildə salınan yüzlərlə hektar sahədəki zeytun bağlarının müsbət nəticəsidir ki, ölkədə zeytun yağı istehsalı artıb. Keyfiyyətli zeytun yağı ixracında Azərbaycan dünya bazarında da fərqlənir. 2016-cı ildə fındıq bağlarının sahəsi təqribən 30-35 min hektar idi. Yeni bağların salınması hesabına hazırda bu rəqəm 70 min hektardır. Fındıq bağlarının 2020-ci ildə 83 min hektara çatdırılması nəzərdə tutulur. 2015-ci ildə cəmi 236 kiloqram barama istehsal olunubsa, bu il 500 tondan çox barama tədarük edilib. Şəki ipək kombinatı da daha böyük həcmlə işləyir. Bu gün aqrar sektorun elə bir sahəsi yoxdur ki, orada islahatlar həyata keçirilməsin. Ölkədə kənd təsərrüfatı sahəsində məhsuldarlığı daha da artırmaq üçün elmi yanaşma tətbiq edilir, ixrac imkanlarının genişləndirilməsi istiqamətində böyük işlər görülür.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

*Mikayıl Cabbarov:*

# Vergi siyasəti iqtisadiyyatın dəyişən tələblərinə, onun artan gücünə adekvat olaraq təkmilləşdirilir

**Vergilər naziri Mikayıl Cabbarov Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərini, vergi qanunvericiliyində gözlənilən dəyişiklikləri, dövlət-biznes münasibətlərini, vergi orqanlarının yeni iş prinsiplərini, həyata keçirilən islahatları və ilkin nəticələri Azərbaycan Televiziyasına şərh edib. AZƏRTAC nazirin şərhlərini təqdim edir.**



Mikayıl Cabbarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasətinin daim iqtisadiyyatın dəyişən tələblərinə, onun artan gücünə adekvat təkmilləşdirildiyini söyləyib. Bildirib ki, Vergilər Nazirliyinin fəaliyyətinin məhz bu tələblərə uyğun qurulması, həyata keçirilən vergi siyasətinin və vergi inzibatçılığının tətbiqi zamanı vergiödəyiciləri ilə dövlət arasında yeni mədəniyyətin sürətlə formalaşdırılması hazırda vergi orqanlarının qarşısında duran əsas vəzifələrdir.

2018-ci ili vergiödəyiciləri ilə münasibətlərdə keçid ili adlandıran vergilər naziri qeyd edib ki, cari ildə cəmiyyətin inkişaf amili ilə şərtləndirilən və aparıcı dünya praktikası ilə uzlaşdırılan yeni bir vergi sisteminə keçid istiqamətində müvafiq addımlar atılıb. Bu prosesin ölkədə sürətlə gedən iqtisadi artıma, oturuşmuş biznes vərdişlərinə və işgüzar mühitə xələl gətirmədən həyata keçirilməsi üçün müvafiq tədbirlər həm inzibatçılıq mədəniyyəti, həm də qanunvericilikdə müvafiq dəyişikliklər vasitəsilə tətbiq olunub: "Sahibkarlıq subyektində aparılan istənilən yoxlama, o cümlədən vergi yoxlamaları istər-istəməz onun fəaliyyətinə müəyyən təsir edir. Sahibkar öz işi, biznesi ilə məşğul olmaq əvəzinə vaxtını dövlət məmurları ilə ünsiyyətə sərf edir. Buna görə də ötən dövr ərzində vergi orqanları tərəfindən aparılan vergi yoxlamalarının sayı üç dəfə azaldılıb".

Nazir bildirib ki, bir çox sahələrdə vergi pozuntuları, xüsusilə uçotun düzgün şəkildə aparılmaması və yaxud ümumiyyətlə aparılmaması, qeyri-rəsmi məşğulluğun mövcudluğu, dövriyyələrin azaldılması kimi hallara rast gəlinir. Ticarət, yaxud ictimai iaşə obyektləri göstərdiyi xidmətin, satdığı malın uçotunun nəzarət-kassa aparatında əks etdirilməsini adətən zəruri saymır. Təəssüflər olsun ki, analoji hallar orta və böyük vergiödəyicilərində, hətta istehsal müəssisələrində də özünü göstərir.

Vergilər Nazirliyinin praktikası və yanaşması imkan verir ki, bir çox yayınma halları nazirliyin texnoloji informasiya bazasının təkmilləşdirilməsi və zənginləşdirilməsi nəticəsində əldə edilmiş məlumatların təhlili vasitəsilə, yoxlamaya getmədən, subyektivlik amilini aradan qaldırmaq və insan amilinin rolunu minimuma endirməklə aşkara çıxarılsın.

Vergi sistemində aparılan struktur islahatları barədə danışan nazir bu islahatların fəlsəfəsinin vergi orqanlarının əsas funksiyasının fiskal nəzarətdən vergiödəyicilərinə xidmət prinsipinə keçirilməsi olduğunu bildirib. Vurğulanıb ki, vergiləri tam həcmdə və vaxtında ödəmək hər bir vergiödəyicisinin və vətəndaşın fəxr və fərəh hissi ilə həyata keçirdiyi öhdəlik olmalıdır. Vergilər dövlət büdcəsinin əsas gəlir mənbələrindən birini təşkil edir və dövlətin maliyyə ehtiyaclarının böyük hissəsi - müəllimin əməkhaqqından tutmuş yanğınsöndürənlərin məsrəflərinə, planlaşdırılmış yol tikintisinə qədər yönələn bütün vəsaitlər vergilər hesabına formalaşır. Vergilərin ödənilməsi sahəsində bütün müvafiq güzəştlər və onların tətbiq dairəsi qanunla müəyyənləşib. Qanunlardan kənar nə vergi orqanı, nə də hər hansı vergi işçisi tərəfindən əlavə güzəştlərin edilməsinə, eləcə də öhdəliklərin tam yerinə yetirilməməsi və digər neqativ hallara heç bir vəchlə yol verilə bilməz.

Biznes mühiti və biznesin aparılmasının asanlığına toxunan vergilər naziri Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın islahatçı ölkə kimi dəyərləndirilməsini çox böyük nailiyyət adlandırıb: "Bu uğur dövlətimizin başçısının rəhbərliyi altında biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində sistemli şəkildə aparılan işlərin məntiqi nəticəsidir". Nazir qeyd edib ki, bununla artıq ikinci dəfədir Azərbaycan "Doing Business" hesabatında ən islahatçı ölkə adını qazanır. Bu, ilk dəfə 2008-ci ildə baş vermişdi. Azərbaycanın 10 il sonra yenidən ən islahatçı ölkə kimi dəyərləndirilməsi onu göstərir ki, aparılan islahatlar sistemli xarakter daşıyır və proseslər bütünlüklə dövlət başçısının diqqət mərkəzindədir. Hesabatda Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı meyarlara toxunan nazir ölkəmizin "biznesə başlama" meyarı üzrə dünyada 9-cu, "vergilərin ödənişi" meyarı üzrə isə 28-ci yerdə qərarlaşdığını bildirib. Onun sözlərinə görə, Azərbaycanda biznesə başlama prosesi çox sadədir, şəffafdır və qısa müddət ərzində həyata keçirilə bilən prosesdir. Bu gün istənilən vətəndaş, yaxud hüquqi şəxslər yeni biznesi "elektron imza" vasitəsilə bir neçə günə, bəzi hallarda bir neçə saata qeydiyyatdan keçirə bilirlər.

Qeyd edilib ki, Vergilər Nazirliyinin fəaliyyətində rəqəmsallaşma və elektron xidmətlərin tətbiqinin genişləndirilməsi bundan sonra da prioritet istiqamət olaraq qalacaq. Növbəti illərdə elektron xidmətlərin sayının genişləndirilməsi, bu xidmətlərin mobil cihazlar vasitəsilə əldə edilməsi imkanlarının yaradılması, Vergilər Nazirliyinin vebportalının funksionallığının genişləndirilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə zəruri işlər həyata keçirilir.

Vergilər Nazirliyinin vergiödəyicilərinə göstərdiyi xidmətlər barədə danışan Mikayıl Cabbarov bu gün biznes iştirakçılarına istiqamətlənmiş geniş çeşiddə vergi xidməti növlərinin mövcud olduğunu vurğulayıb. Respublikamızda vergiödəyicilərinin 90 faizindən çoxunun hesabat və bəyannamələrini elektron şəkildə təqdim etdiyini bildirən nazir bunu çox yüksək göstərici adlandırıb. Rəqəmsallaşmanın təkcə vergiödəyicilərinə göstərilən xidmətlərə deyil, eyni zamanda, təhlillərin və auditin aparılması, kameral yoxlamaların həyata keçirilməsi prosesində də tətbiq ediləcəyini, bu prosesin süni intellekt üzərində qurulan proqramlardan, müasir informasiya texnologiyalarından istifadə etməklə tətbiq olunacağını bildirib.

"Kölgə iqtisadiyyatı"nın miqyaslarının azaldılması, iqtisadiyyatın şəffaflaşdırılması məsələləri barədə danışan M.Cabbarov bu məsələnin bütün dünya ölkələri üçün böyük problem olduğunu və həlli yollarının axtarıldığını diqqətə çatdırıb. "İstənilən iqtisadi fəaliyyət ədalətlilik, bərabərlik və təxmin edilən vergitutma prinsipləri ilə tənzimlənməlidir. Qanunların tələblərinə əməl etməyən sahibkarlarla intizamlı vergiödəyiciləri arasında haqsız rəqabət yaranıb. Bu rəqabətdə dövlət hər zaman məhz sonuncunun yanında olacaq", - deyə vergilər naziri bildirib.

Vurğulanıb ki, bir çox hallarda insanlar özləri də bilmədən "kölgə iqtisadiyyatı"nın iştirakçısına çevrilirlər. Məsələn, vətəndaş aksizsiz malları əldə edərkən, işçi kimi əmək müqaviləsi bağlamadan çalışarkən, alıcı kimi istənilən mağazada və yaxud iaşə obyektində kassa çekini almamaqla "kölgə iqtisadiyyatı"nın iştirakçısı olur.

Bildirilib ki, pərakəndə ticarətlə bağlı rəsmi statistik məlumatları və vergi məqsədləri üçün vergiödəyiciləri tərəfindən təqdim edilən bəyannamələri təhlil və müqayisə edərkən bu iki göstərici arasında xeyli fərqin olduğu görünür. Bununla yanaşı, iqtisadiyyatda olan yüksək nağdlaşma, nağd pulun dövriyyəsi, ümumi daxili məhsulda əməkhaqqının nisbətinin aşağı olması və bir sıra digər makromeyarlar "kölgə iqtisadiyyatı"nın miqyaslarını əyani göstərir.

Müxtəlif beynəlxalq təşkilatlar və ölkəmizdə fəaliyyət göstərən aidiyyəti qurumlar tərəfindən "kölgə iqtisadiyyatı"nın həcminin ölçülməsinə cəhdlər göstərilir. Nəticə tətbiq edilən metodologiyalardan asılı olaraq fərqli ola bilər. Aydın olan budur ki, problemin çözülməsi üçün sistemli tədbirlər həyata keçirilməlidir. Burada bir tərəfdən qanunvericilik əsasında "kölgədən çıxış"ı təşviq edən alətlərdən istifadə edilməli, digər tərəfdən nəzarət və cəza alətləri tətbiq olunmalı, sanksiya mexanizmləri gücləndirilməlidir. Bir çox hallarda hətta dövlət tərəfindən güzəşt verilən sahələrdə də "kölgə iqtisadiyyatı"nın əlamətləri - dövriyyədən yayınma, üçüncü şəxslərə vergidən yayınmaq üçün şərait yaradılması kimi xoşagəlməz hallara rast gəlinir.

Nazir belə hallara qarşı sistemli mübarizə aparıldığını bildirərək deyib: "Vergilər Nazirliyi tərəfindən 2018-ci ildə müəyyən istehsal sahələrində, məsələn, insan sağlamlığına mənfi təsir edən tütün məmulatları və alkoqollu içkilər sahəsində ciddi tədbirlər həyata keçirilib. Əgər ilin əvvəlində daxili bazarda qaçaqmalçılıq yolu ilə gətirilən tütün məmulatlarının həcmi 16-18 faiz təşkil edirdisə, görülən tədbirlər nəticəsində bu gün həmin rəqəm 3,5 faiz ətrafındadır. Bu, bir çox aparıcı Avropa dövlətləri, həmçinin Rusiya və Qazaxıstanla müqayisədə çox aşağı göstəricidir. Qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən məhsullar "kölgə iqtisadiyyatı"nda dövr edir, dövlətə çatan vergilər, aksiz ödənişləri həyata keçirilmirdi. Bundan itirənlər isə dövlət büdcəsi və fəaliyyətini qanunlar çərçivəsində qurmaq istəyən ödəyicilər olurlar. Yaxud aparılan araşdırmalar zamanı alkoqollu içkilər istehsalının həcminin kəskin şəkildə azaldıldığı, real istehsal dövriyyələrinin göstərilmədiyi müəyyən edilmişdi. Bu fərq çox böyük idi. Nəticədə bu ilin ikinci yarısından vergi orqanları tərəfindən həmin müəssisələrdə daimi aksiz nəzarət postları quraşdırıldı. Bu postların fəaliyyəti göstərdi ki, alkoqollu içki istehsalının həcmi 3,5 dəfə azaldılırdı. Burada bir neçə məsələ var idi: aksizin alınmaması hesabına dövlətin vergisinin ödənilməməsi, qanunsuz malların ticarət obyektlərində satılması nəticəsində cinayətkar şəbəkələrin yaranması və s. Bu prosesin hər həlqəsində istehsalçının öz məsuliyyəti, satıcının öz vergi məsuliyyəti var idi. Görülən tədbirlərlə bütün bunların qarşısı alındı".

Vergilər naziri bildirib ki, 2018-ci il keçid ili olduğuna görə bu kimi hallara dövlət tərəfindən kifayət qədər humanizm nümayiş etdirilib. Cəzaların əksəriyyəti baş verən pozuntuların aradan qaldırılması və maliyyə sanksiyalarının ödənilməsi ilə məhdudlaşıb. Xarakter etibarilə kütləvi təşkil edilmiş və ciddi cinayət əlaməti olan hallar istisna olmaqla, qalan bütün hallarda müvafiq səlahiyyətlər çərçivəsində güzəştli addımlar atılıb.

M.Cabbarov qeyd edib ki, yeni vergi mədəniyyətindən, "kölgədən çıxış"dan danışarkən, heç kim bu yolun birtərəfli olduğunu düşünməməlidir: "Dövlətin hər zaman güzəştə gedəcəyini düşünmək düzgün deyil. Dövlət vəziyyətin sabitləşməsi və sivilləşməsi istiqamətində daim öz işini görməlidir. Vergi inzibatçısı vergi ödənişini təmin etməli, dövlət orqanları fəaliyyətini dövlətin mənafeyinə uyğun qurmalı, vergiödəyicisi də fəaliyyətini qanunlar çərçivəsində aparmalı və haqqını tələb etməlidir".

Rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin vacibliyinə də toxunan nazir qeyd edib ki, əsas məqsəd nağdsız hesablaşmalar sistemini gücləndirməkdir. Ölkə Prezidentinin rəqəmsal ticarətin coğrafiyasının genişləndirilməsi ilə bağlı çox önəmli bir sənəd imzaladığını bildirən M.Cabbarov bunun "kölgə iqtisadiyyatı" ilə mübarizəyə hesablanmış əhəmiyyətli addım olduğunu vurğulayıb. Nağdsız ödənişlərin stimullaşdırılması üçün dövlət tərəfindən təşviqin verilməsi barədə danışan nazir vergi qanunvericiliyinə dəyişikliklərlə bağlı verilmiş təkliflər arasında belə bir mexanizmin olduğunu vurğulayıb. Belə ki, pərakəndə ticarət sahəsində nağdsız ödənişlər edən vətəndaşlar üçün vergi güzəştləri nəzərdə tutulur.

Məlumat verilib ki, 2019-cu ildən başlayaraq onlayn nəzarət kassa aparatları tətbiq ediləcək. Bu yenilik nəticəsində pərakəndə ticarət və xidmət sektorunda baş verən istənilən ödənişin həmin anda onlayn sistemdə əks etdirilməsi və yüklənməsi aparılacaq ki, bu da nəticə etibarilə hər hansı pozuntuların, dövriyyələrin gizlədilməsi kimi halları mümkünsüz edəcək. Bu, həm də vətəndaşların hüquqlarının qorunmasına, büdcə vəsaitlərinin ödənişinin təmin edilməsinə yönəlmiş bir addımdır.

Vergi Məcəlləsinə təklif edilmiş dəyişikliklər barədə danışan M.Cabbarov ən əhəmiyyətli yenilik kimi qeyri-neft və özəl sektorda çalışan vətəndaşların əməkhaqlarından tutulan vergilərin mövcud faiz dərəcələrinin azaldılmasını qeyd edib: "Təqdim olunan layihədə bir neçə əsas dəyişiklik nəzərdə tutulur. Onlardan biri vergiyə cəlb olunan məbləğin həcminin dəyişdirilməsi ilə bağlıdır. Aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün gəlir vergisi üzrə 100 faizlik güzəşt, 8000-dən yuxarı olan məbləğdə fiziki şəxslərin gəlir vergisinin 14 faiz həcmində müəyyənləşdirilməsi təklif edilir. Dövlət bu məsələdə çox böyük güzəştə gedir. Faktiki olaraq, qeyri-neft sektorunun inkişafı və ona dəstək üçün ötən illər ərzində edilən güzəştlərə əlavə olaraq belə bir vacib addımın da atılması nəzərdə tutulur".

Vergilər naziri vurğulayıb ki, əməkhaqqı ilə bağlı olan iki ödəniş növü var: bunlar fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləridir. Bu ödənişlərin vahid inzibatçılığının həyata keçirilməsi təklif edilir. Bu da öz növbəsində işəgötürənlər üçün həmin prosesin xeyli sadələşdirilməsi deməkdir. Dövlət bu islahata getməklə öz gəlirlərinin müəyyən hissəsini itirir. Lakin bu islahatın həyata keçirilməsi ilə "kölgə iqtisadiyyatı"nın həcminin azalması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın xüsusilə qeyri-neft sektorunun özəl bölməsində daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının daha dolğun şəkildə təmin edilməsi gözlənilir: "Bu, çox əhəmiyyətli, köklü bir dəyişiklikdir və faktiki olaraq qeyri-neft, qeyri-dövlət sektorunda çalışan hər bir işçini əhatə edəcək. İqtisadi cəlbediciliyini təmin etmək məqsədilə bu güzəştin uzunmüddətli tətbiq edilməsi nəzərdə tutulur. Hazırda verilmiş təkliflərə görə, güzəştin 7 il müddətinə tətbiqi planlaşdırılır. Əslində bu, dövlət başçısı tərəfindən bu sahədə çalışan vətəndaşlara və iş adamlarına çox böyük güzəştdir. Belə bir ciddi güzəştin təqdim edilməsi ən yüksək siyasi səviyyədə qərar tələb edən bir layihədir. Məhz buna görə də inanırıq ki, Azərbaycan sahibkarları və vətəndaşları bu güzəşti düzgün qiymətləndirərək, dövlətin təklifinə adekvat olaraq vergidən yayınmamaq, qeyri-rəsmi məşğulluğu aradan qaldırmaq, işləyən vətəndaşın hüququnu təmin etmək, ödənilən əməkhaqqını olduğu kimi göstərmək kimi addımlarla cavab verəcəklər".

Nazir vergi qanunvericiliyində mühüm dəyişikliklərdən biri kimi, gələn ildən sadələşdirilmiş verginin dərəcəsinin aşağı salınmasına dair təklifi də diqqətə çatdırıb. Bildirib ki, sadələşdirilmiş vergi haqqında danışanda iki məqam qeyd edilməlidir. Birincisi və ən əsası sadələşdirilmiş vergiödəyiciləri olan kiçik sahibkarlardır. Bu, illik dövriyyəsi 200 min manatı aşmayan çox sayda vergiödəyicisini əhatə edir. Həmin kateqoriya üçün əhəmiyyətli vergi güzəşti tətbiq edilməsi - vergi dərəcəsinin 4 faizdən 2 faizə qədər endirilməsi təklif edilib. Faktiki olaraq, belə vergiödəyiciləri üçün vergi yükü iki dəfə azaldılmış olur.

İkinci kateqoriya sadələşdirilmiş vergiödəyiciləri bir sıra fəaliyyət növlərini əhatə edir. Bunlar topdansatış fəaliyyəti ilə məşğul olan, tikinti sektorunda fəaliyyət göstərən və digər sahibkarlıq subyektləridir. Dövlət belə kateqoriya sahibkarlara da müxtəlif iqtisadi və fiskal səbəblərə görə sadələşdirilmiş vergiödəyiciləri ola bilmək üçün seçim imkanı verib. Bu sahədə müəyyən mənfi hallar müşahidə edilirdi. Bir sıra hallarda kiçik biznes nümayəndəsi olmayan, yəni, dövriyyələri 200 min manatı aşan bəzi vergiödəyiciləri dövlətin tətbiq etdiyi güzəştlər sistemindən, asan biznesə başlama üsullarından sui-istifadə edərək, dövriyyələrini azaltmaq, bizneslərini məqsədli şəkildə bir neçə yerə parçalayaraq qeydiyyatdan keçirməklə bu güzəştlərə vergidən yayınma vasitəsi kimi baxırdılar. Bundan ən çox əziyyət çəkən məhz kiçik sahibkarlar idi. Çünki orta və iri sahibkarlardan fərqli olaraq kiçik sahibkarların xərclərinin strukturu fərqlidir, gəliri azdır. Kiçik sahibkar öz dükanında satacağı malı və məhsulu böyük həcmdə ala bilmir. Deməli, müvafiq olaraq məhsulu daha yüksək qiymətə almış olur. Nəqliyyat xərcləri daha çoxdur və nəticədə aldığı malı daha yüksək qiymətə satmağa məcburdur. Beləliklə, kiçik sahibkar rəqabətə davam gətirməyə çətinlik çəkir. Dövlət bütün bunları nəzərə alaraq onun vergi güzəşti yolu ilə dəstəklənməsinə qərar verib.

Lakin baş verən sui-istifadə halları göstərir ki, onlar üçün nəzərdə tutulmadığı halda kiçik sahibkar olmayan bir çoxları da bu güzəştlərdən faydalanırlar. Təbii olaraq bu hal yolverilməzdir, bərabər və ədalətli vergitutma prinsiplərini pozan bir vəziyyətdir. Məhz bu səbəbdən dəyişikliklər paketində sadələşdirilmiş vergi fəaliyyətlərinə də yenidən nəzər salınıb və bu sahə üzrə fəaliyyət növlərinin siyahısı müəyyənləşdirilib.

Vergilər naziri bildirib ki, dövlət kiçik sahibkarlığın dəstəklənməsində maraqlıdır. Bu siyasət davam etdirilir. Dövlət başçısı tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb və bir sıra təşviqedici mexanizmlər formalaşdırılıb.

M.Cabbarov kənd təsərrüfatı sahəsinə verilən vergi güzəştinin müddətinin daha 5 il müddətinə uzadılmasının təklif edildiyini də bildirib. Bu zaman vergi güzəştləri ilə bağlı məsələlərə toxunan nazir qeyd edib ki, bir çox hallarda bu və ya digər sahəyə, yaxud fəaliyyət növünə verilən güzəşt sahibkarlar tərəfindən vergi uçotuna zərurət olmaması kimi başa düşülür. Bəzi sahibkarlar hesab edir ki, vergi güzəşti varsa, uçot aparılmamalı, qanunvericiliyin digər tələblərinə əməl edilməməlidir. Bu isə sonda mənfi halların yaranmasına gətirib çıxarır. Məsələn, kənd təsərrüfatı istehsalçısına dövlət tərəfindən güzəşt təqdim edilir. Lakin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) ödəyici işçi ilə əmək müqaviləsi bağlamadığı və ya onun uçotunu aparmadığı halda pozuntu baş verir. Yaxud o, istehsal həcminin və satışının uçotunu aparmayanda müvafiq ticarət şəbəkəsinin vergidən yayınması üçün şərait yaratmış olur və bu, zəncirvarı bir həlqəyə çevrilir. Bu səbəbdən həm inzibatçılıqda, həm qanunvericilikdə, həm də ictimai şüurda belə bir yanaşmanı formalaşdırmalıyıq ki, dövlət güzəşti üçüncü şəxslərin vergidən yayınması üçün təqdim etmir. Güzəşt konkret sahədə çalışan sahibkarların fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi məqsədi daşıyır.

Nazir, həmçinin bildirib ki, vergi qanunvericiliyinə dəyişikliklər paketi təsdiq edildikdən sonra Vergilər Nazirliyinin saytında və kütləvi informasiya vasitələrində ciddi kommunikasiya proqramı həyata keçiriləcək. Hazırda qanunvericilik layihəsi Milli Məclisdədir və aidiyyəti komitələrdə müzakirə olunur. Dəyişikliklər paketi hazırlanarkən onun ayrı-ayrı müddəalarının biznes subyektləri, sahibkarlıq assosiasiyaları və bu sahədə fəaliyyət göstərən ictimai təşkilatlarla birlikdə müzakirəsi aparılıb.

M.Cabbarov vergi orqanları tərəfindən qanunlar çərçivəsində fəaliyyət göstərən ödəyicilərin daim dəstəklənəcəyini, səhvə yol verən vergiödəyicilərinə nöqsanların aradan qaldırılması üçün kömək göstəriləcəyini diqqətə çatdırıb. Əlavə edib ki, nazirlik vergi öhdəliklərindən şüurlu şəkildə yayınan vergiödəyicilərinə münasibətdə dövlətin və qanunun verdiyi bütün hüquq və səlahiyyətlərdən istifadə etməklə adekvat addımlar atacaq.

**AZƏRTAC**

# Müasirləşən ədliyyə və məhkəmə-hüquq sistemi

**Bu günlərdə ədliyyə və məhkəmə orqanlarında əsl bayram əhval-ruhiyyəsi yaşanır, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilərək ədliyyə tarixinin nailiyyətlərlə zəngin yeni səhifələri yazılır. Belə bir əlamətdar yubiley ərəfəsində Azərbaycan ədliyyəsinin tarixini və ayrı-ayrı dövrlərdə fəaliyyətini öyrənmək və təşviq etmək, son illər şahidi olduğumuz ədliyyə və məhkəmə-hüquq sistemində həyata keçirilən genişmiqyaslı islahatlar və əldə olunan nailiyyətlərlə bölüşmək olduqca qürurvericidir.**

Hər bir demokratik cəmiyyətdə mühüm rol oynayan ədliyyə, bütövlükdə hüquq sisteminin fəaliyyətinə dövlətçilik tariximizin parlaq səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəsna əhəmiyyət verilmişdir. O dövrdə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin çıxışlarının birində “bilirsiniz ki, ədliyyə nəzarəti olmalıdır. Bu olmasa, heç bir dövlətin işi yürüməz... Ədliyyəsi olmayan məmləkətdə tərəqqi olmaz, məmləkət irəliləməz” fikirləri məhz dövlətin ədliyyə fəaliyyətinə nə qədər böyük önəm verdiyini təsdiq edir. Təsadüfi deyil ki, Ədliyyə Nazirliyi məhz 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə eyni gündə təsis edilmiş, Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur.

Cəmi 23 ay yaşamasına baxmayaraq, müstəqilliyimizin təməli olan və bu il 100 illiyi geniş qeyd olunan Azərbaycan Xalq Cümhuriyyəti o dövrdə dövlətimiz və xalqımız üçün mühüm xidmətlər göstərmiş, Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edilmiş, ölkənin sərhədləri müəyyənləşdirilmiş, bayrağı, himni və gerbi yaradılmış, ana dili dövlət dili elan edilmiş, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, Cümhuriyyət Parlamenti tərəfindən ölkənin müstəqilliyini qoruyub saxlamaq, insan haqlarının dolğun təmin olunduğu müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul edilmiş, həmçinin Ədliyyə Nazirliyi tərəfindən respublikada qayda-qanunun bərpası ilə əlaqədar müvafiq hüquqi aktların qəbul edilməsi üçün tədbirlər görülmüş, hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi məqsədilə hüquq kursları təşkil edilmiş, hüquq ədəbiyyatı kitabxanası yaradılmışdır. Həbsxana işinin ədalət mühakiməsinin həyata keçirilməsində müstəsna əhəmiyyəti nəzərə alınaraq Hökumətin Qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. Həmçinin, qısa müddətdə məhkəmə və istintaq orqanlarının, prokurorluğun fəaliyyəti bərpa olunmuş, demokratik prinsiplərə uyğun dövlət orqanları qurulmuşdur.

Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti yenidən qurulmuş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə nazirliyin Əsasnaməsinin təsdiq edildiyi 22 noyabr tarixinin ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis olunması ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaratmışdır. Bir əsrlik zəngin və keşməkeşli tarixi yol keçən Azərbaycan ədliyyəsi sovet imperiyası dövründə çox ciddi çərçivələr arasında fəaliyyət göstərməli olmuş, yalnız ulu öndər Heydər Əliyevin sovet dövründə ölkəyə rəhbərlik etdiyi illərdə əsaslı şəkildə yenidən formalaşaraq gələcək inkişafı üçün əlverişli şərait yaranmışdır.

Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev güclü siyasi iradəsi, tükənməz dövlətçilik bacarığı sayəsində müstəqilliyimizi qoruyub möhkəmləndirmiş, cümhuriyyət ənənələrini yaşadaraq demokratik hüquqi dövlət ideyasını gerçəkləşdirmiş, ilk milli Konstitusiyanı qəbul etmiş, yeni Parlament formalaşdırmış, müasir hüquqi sistemi bərqərar etmiş, demokratik dövlət təsisatları yaratmış, Azərbaycanı iqtisadi tənəzzüldən intibah edən, beynəlxalq aləmə sürətlə inteqrasiya edən ölkəyə çevirmişdir.

Ümummilli lider Heydər Əliyev demokratik hüquqi dövlət quruculuğu yolu ilə gedərək ölkənin hərtərəfli inkişafı üçün inqilabi islahatlar həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev demişdir: “Bu gün müstəqil Azərbaycan Respublikası elə bir ictimai-siyasi və sosial-iqtisadi durumdadır ki, bizim üçün ölkənin bütün sahələrindəki islahatlar zəruridir. Ancaq hüquq islahatları, xüsusən, ölkədə ədalətin bərqərar edilməsi üçün məhkəmə islahatları bugünkü Azərbaycan üçün daha böyük önəm kəsb edir. Biz bu islahatları yüksək səviyyədə həyata keçirəcəyik”.

İslahatlar nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara uyğun yaradılmış yeni üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan yaratmışdır.

Məhkəmə islahatlarının gedişində, həmçinin məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək üçün mənəvi cəhətdən saf, yüksək biliyə malik hakim korpusunun formalaşdırmasına böyük ehtiyac yaranmışdı. Bu məqsədlə 1998-ci ildə Prezident yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçirmək vəzifələrini yerinə yetirən Məhkəmə-Hüquq Şurası təsis edilmişdi. Başqa sözlə, bugünkü məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının möhkəm bünövrəsi yaradılmışdır. Həmçinin, 2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakimlərin seçimi aparılmış və nəticədə hakim korpusu 60% təzələnmişdi.

Bu gün müstəqil Azərbaycan möhkəm təməl üzərində uğurla inkişaf edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqillik tariximizin yeni-yeni nailiyyətlərlə zəngin parlaq səhifələri yazılır. Respublikamızın hərtərəfli sosial-iqtisadi tərəqqisinə uyğun olaraq məhkəmə-hüquq islahatları ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hər bir fərdin qanuni maraq və mənafeyinin təminatı baxımından uğurla davam etdirilir.

Dövlət başçısının ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq son illər həyata keçirilən islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşmiş, bu sahədə mütərəqqi qanunvericilik və institusional islahatlar aparılmış, ölkəmizdə məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı və bu gün geniş səlahiyyətlərə malik olan Məhkəmə-Hüquq Şurası və hakimlərin şəffaf prosedurlar əsasında seçimini aparan Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Təsadüfi deyil ki, Azərbaycanda hakimlərin ən şəffaf seçimi Avropada örnək kimi dəyərləndirilərək digər dövlətlərə ölkəmizin bu sahədə müsbət təcrübəsindən bəhrələnmək tövsiyə edilmişdir.

Bu sahədə davam edən islahatlar Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Corc Vaşinqtonun dediyi kimi: “Ədalət mühakiməsinin həyata keçirilməsi dövlətin möhkəm sütunudur”. Ona görə də bu islahatların həyata keçirilməsində məqsəd ədalət mühakiməsinin effektivliyinin artırılması, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, hakim korpusunun tam şəffaflıq və obyektivlik əsasında formalaşdırılmasından ibarətdir. Bu məqsədlə ötən dövrdə dövlət başçısının tapşırıqlarına uyğun olaraq yeni regional, o cümlədən apelyasiya, inzibati-iqtisadi, ağır cinayətlər məhkəmələrinin yaradılması vətəndaşların müraciət imkanlarının artırılmaqla asanlaşdırılmasına, ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsinə əlverişli şərait yaratmışdır.

“Məhkəmə-hüquq sistemi maksimum şəffaf olmalıdır”, - deyən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında Sərəncamı məhz müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi ilə məhkəməyə müraciət imkanlarının genişlənməsinə, şəffaflığın, aşkarlığın və operativliyin təmin edilməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına geniş imkan yaratmışdır. Son illər elektron məhkəmə sisteminin tətbiqi üzrə ardıcıl işlər həyata keçirilmiş, yeni inşa edilmiş məhkəmə binaları müasir informasiya-kommunikasiya texnologiyaları ilə tam təchiz olunmuş, o cümlədən proseslərin audio-video yazısını aparan sistemlər, video-konfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi üçün zəruri infrastruktur yaradılmışdır.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsi ilə bağlı Dünya Bankı ilə birgə Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər, paytaxtımızda və bölgələrdə bir sıra yeni məhkəmə binalarının və komplekslərinin tikilərək istifadəyə verilməsi ölkədə aparılan məhkəmə-hüquq islahatlarının tərkib hissəsidir. Bir çox bina və komplekslərin açılışlarında dövlətimizin başçısının şəxsən iştirakı xüsusilə əlamətdar olmaqla dərin minnətdarlıqla qarşılanır.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun iştirakı ilə Zaqatalada Rayon Məhkəməsi üçün yeni binanın açılışı məhkəmə fəaliyyətinin müasirləşdirilməsi üzrə görülən tədbirlərə əlavə töhfə olmuşdur. Şübhəsiz ki, məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması bu hakimiyyəti realizə edən biz, hakimlərin peşəkarlığı, onların mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdır. Bununla əlaqədar məhkəmə hakimiyyətinin hazırlıqlı və mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür. Bu günlərdə ilk dəfə olaraq ali və bütün apelyasiya məhkəmələri 30 hakimin təyinatı ilə tam komplektləşdirilmiş, həmçinin şəffaf və çoxmərhələli imtahanlarda müvəffəqiyyət qazanaraq hakim vəzifəsinə layiq bilinmiş 108 nəfər namizədin təyinatları gözlənilir.

İnsan haqlarının etibarlı təminatına yönəlmiş və beynəlxalq aləmdə təqdir olunan məhkəmə islahatlarımızın müsbət nəticələri cəmiyyətimizdə rəğbətlə qarşılanır və bütün bunlar, hər birimizi daha məsuliyyətlə fəaliyyət göstərməyə sövq edir.

Sözsüz ki, ədliyyə və məhkəmə sisteminin inkişafı ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların real təzahürü olmaqla, respublikamızın hərtərəfli tərəqqisinin məntiqi davamıdır. İnanırıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan mütərəqqi islahatlar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı təminatına, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinə bundan sonra da öz töhfələrini verəcəkdir.

**Bəylər ƏLƏKBƏROV,**
**Siyəzən Rayon Məhkəməsinin sədri.**

# Ədliyyə sistemində islahatlar uğurla aparılır

**Ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş 22 Noyabr — Ədliyyə İşçilərinin Peşə Bayramı hər il ölkəmizdə təntənəli surətdə qeyd edilir. Müasir Azərbaycanı Xalq Cümhuriyyətinin varisi hesab edən ulu öndər bu tarixi əbəs yerə seçməmişdir. Məhz həmin gün, yəni 1918-ci ilin 22 noyabrında Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin nizamnaməsini təsdiq etmişdir. Elə ona görə də 2018-ci ildə yaranmasının 100-cü ildönümünü ədliyyə orqanlarının əməkdaşları bu tarixi günü böyük ruh yüksəkliyi, sevinc və ulu öndər Heydər Əliyevə dərin minnətdarlıq duyğuları ilə qarşılayırlar.**

Həqiqətən də tarixə nəzər yetirsək görərik ki, 1920-ci il sovet işğalından sonra dəfələrlə ləğv edilib, səlahiyyətləri ayrı-ayrı dövlət orqanlarına həvalə edilmiş Ədliyyə Nazirliyinin yenidən dövlətçiliyin vacib sütunlarından biri kimi təsis edilməsi bilavasitə ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1969-cu ildə ulu öndər Azərbaycan rəhbərliyinə gəldikdən sonra, daha dəqiq isə 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bununla da ölkə ədliyyəsi tarixində yeni mərhələ başlamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra həyatımızın bütün sahələrində olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsi, təmamilə yeni hüquq və məhkəmə sisteminin formalaşması, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması günün tələbinə uyğun meydana çıxdı. Müstəqil dövlətin həyatında Konstitusiyanın oynadığı rolu yüksək qiymətləndirən Heydər Əliyev səlahiyyətli tərkibdə Konstitusiya Komissiyası yaratdı və layihə geniş ictimaiyyətin müzakirəsinə verildi. 12 noyabr 1995-ci ildə Azərbaycanda çoxpartiyalı əsaslarla parlament seçkiləri keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın Əsas Qanunu - Konstitusiyası qəbul olundu. Əsas Qanunda Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat verilməsi; vətəndaş cəmiyyətinin qurulması; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən dünyəvi-hüquqi dövlətin bərqərar olunması, ədalətli sosial nizamın yaradılması və ən əsası, hakimiyyətin üç müstəqil qola - qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi öz əksini tapmışdır. Qəbul edilmiş bu Konstitusiya köklü məhkəmə-hüquq islahatlarının aparılmasının da əsasını qoydu.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi məqsədilə 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquq İslahat Komissiyası, 1998-ci ildə isə dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış və 1997-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş “Məhkəmə və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyətinin müstəqil, yalnız qanun çərçivəsində fəaliyyət göstərməsinə imkan yaratdı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də Azərbaycan Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş “Konstitusiya Məhkəməsi haqqında” qanunun qəbul edilməsi oldu. Konstitusiya Məhkəməsinin təşkil olunması isə hüquqi-demokratik dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan xalqının müasir tarixində mühüm bir hadisə sayılmalıdır. Komissiya tərəfindən hazırlanmış “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında”, “Notariat haqqında” və sairə qanunların qəbulu xüsusi əhəmiyyətə malikdir.

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və “Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” 1 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məhkəmələrin təşkil edilməsi, hakim vəzifələrinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyətləri dairəsində həyata keçirən məşvərətçi orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılmış və ölkə tarixində ilk dəfə olaraq hakim vəzifəsinə namizədin peşə hazırlığını, bilik səviyyəsini, hakim vəzifəsinə layiq olduğunu müəyyən etmək məqsədilə test üsulu ilə imtahan və müsahibə aparılması yolu ilə təyin edilməsi qərara alınmışdır. Təcrübədə sınanmış bu qaydaların nə dərəcədə effektiv olması özünü sübut etdi və 2000-ci ildə keçirilmiş test imtahanları zamanı hakim korpusu 60 faizə qədər təzələnmişdir. Təkcə bu fakt seçkinin ədalətli, şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyinə əmin olmaq üçün kifayətdir.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk dövlət olmuşdur. Yüksək humanizm və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər bir təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

2003-cü ildən ulu öndərin əsasını qoyduğu mütərəqqi islahatları inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də hüquqi dövlət quruculuğu prosesində fəal iştirak edən Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin genişləndirilməsinə və müasirləşdirilməsinə xidmət edən bir sıra fərmanlar, sərəncamlar imzalamışdır. Dövlət başçısının 18 aprel 2006-cı il tarixli fərmanı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə” nazirliyin fəaliyyətinin daha da yaxşılaşdırılmasına, onun səmərəliliyinin yüksəldilməsinə əlverişli imkan yaratmışdır. Azərbaycan Respublikası Milli Məclisinin 26 may 2006-cı il tarixli iclasında qəbul edilən “Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikasının Qanunu ədliyyə orqanlarında, idarələrində və təşkilatlarında, penitensiar xidmətdə qulluqkeçmə qaydalarını və şərtlərini, bu orqanların işçilərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən etmişdir. Qanunda ədliyyə işçilərinin əsas hüquqları genişləndirilmiş, vəzifələri dəqiqləşdirilməklə məsuliyyətləri artırılmış, həmçinin onların sosial müdafiəsinin gücləndirilməsi, maddi təminatının möhkəmləndirilməsi məsələləri əksini tapmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 17 avqust 2006-cı il tarixdə imzaladığı “Ədliyyə orqanlarının inkişafı haqqında” fərmanla aparılan islahatlar çərçivəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri dəqiq müəyyən edilmiş, onun cəmiyyətdə rolu və əhəmiyyəti daha da artmış, nazirliyin üzərinə yeni məsul vəzifələr qoyulmuş, yeni struktur qurumlar yaradılmışdır. Ədliyyə sistemi ilə yanaşı, insan hüquq və azadlıqlarının təmini baxımından ötən müddətdə məhkəmə sistemində yeni dövrün tələblərinə cavab verən islahatların aparılması da Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. Ötən 12 ildə “Məhkəmə-Hüquq Şurası haqqında”, “Məhkəmələr və hakimlər haqqında” qanunlara bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmiş, yeni dövrün reallıqları ilə şərtlənən bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Prezident İlham Əliyev bölgələrin inkişafı tədbirlərinin davamı kimi 19 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Qanunun tətbiq edilməsi barədə fərman imzalamışdır. Regionların sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsi ilə şərtlənən bu fərman dövlət başçısının məhkəmə hakimiyyətinin cəmiyyətdə nüfuzlu təsisat kimi təşəkkül tapmasında maraqlı olduğunu bir daha nümayiş etdirmişdir. Məhz bu fərman əsasında bölgələrdə yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr yaradıldı. Xatırladım ki, bu fərman işıq üzü görənə qədər respublikamızda yalnız bir Apellyasiya Məhkəməsinin fəaliyyət göstərməsi, ilk növbədə, bölgələrdə yaşayan insanlar üçün ciddi problemlər doğurur, onların qanuni mənafelərinin yüksək səviyyədə təminatına əngəllər yaradırdı. Vətəndaşlar birinci instansiya məhkəmələrinin qərarlarından verdikləri apelyasiya şikayəti ilə əlaqədar uzaq məsafə qət edərək Bakı şəhərinə gəlməyə, əksər hallarda prosesin müəyyən səbəblərdən təxirə salınması ilə bağlı geriyə dönməyə məcbur olurdular. Apellyasiya şikayətlərinin çoxluğu əksər hallarda ədalətli məhkəmə araşdırmasının aparılmasını və iş üzrə yekun qərar vermək imkanlarını da məhdudlaşdırırdı. Regionlarda apelyasiya məhkəmələrinin fəaliyyətə başlaması bu sahədə ciddi dönüş yaratdı. Hazırda vətəndaşların apelyasiya məhkəmələrinə müraciət imkanları xeyli asanlaşmışdır.

Məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində atılan addımlar da mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi dəyərləndirilə bilər. Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən tədbirlər hakim vəzifəsinə seçkilərin şəffaf və ədalətli keçirilməsinə, bu məsul vəzifəyə ən layiqli insanların seçilməsinə xidmət etmişdir. Seçim prosedurları zamanı hakim vəzifəsini tutacaq şəxsin qanunları mükəmməl bilməsinə, geniş dünyagörüşünə, yüksək insani keyfiyyətlərə malik olmasına, cəmiyyətdə müsbət reputasiya ilə tanınmasına xüsusi diqqət yetirilmişdir. 2010-cu ildə regionlarda və paytaxtda yeni məhkəmələrin yaradılması, həmçinin, məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində mühüm addımlar atılmışdır. Məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq Məhkəmə-Hüquq Şurasının təklifi ilə həmin ildən hakimlərin sayı 25 faiz, məhkəmə aparatı işçilərinin sayı isə 60 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur.

Dövlət başçısı İlham Əliyevin 2010-cu il 22 iyun tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər” və “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə” qanunu xüsusi qeyd etmək lazımdır. Həmin Qanunla yerli iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr yaradılmış, Qanunun tətbiq edilməsi haqqında Fərmana əsasən isə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi, habelə Lənkəran, Gəncə, Şəki Ağır Cinayətlər məhkəmələri yaradılmışdır. Həmçinin sözügedən Fərmanla 1 və 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şəki, habelə Naxçıvan iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr yaradılmış, onların sədrləri və hakimləri təyin olunmuşlar. 2011-ci il yanvarın 1-dən iqtisadi və inzibati işlərə məhz yeni yaradılmış inzibati-iqtisadi məhkəmələrdə baxılır. Bu isə inzibati və iqtisadi xarakterli mübahisələrin ixtisaslaşmış birinci instansiya məhkəməsində tam, ədalətli, obyektiv araşdırılmasına, qanuna müvafiq şəkildə baxılmasına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sisteminin inkişafında inqilabi dəyişikliyə gətirib çıxaran 2014-cü ilin 13 fevralında imzaladığı Sərəncama əsasən “elektron məhkəmə” informasiya sisteminin yaradılması da məhkəmə-hüquq islahatlarında yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu sistemin işləməsi ilə insanların artıq məhkəməyə gəlmədən, elektron formada müraciət edə bilməsi, proses barədə məlumatları elektron daşıyıcıdan dərhal alması, məhkəmə proseslərinin audio-video və digər texniki vasitələrlə qeydə alınması, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanının yaradılması, proses iştirakçılarının məhkəmənin gedişi, qərarlar, onların icra vəziyyəti və sairə məlumatları əks etdirən elektron “şəxsi kabinetə” malik olması, işlərin elektron dövriyyəsinin təşkil edilməsi nəzərdə tutulmuşdur. Artıq sözügedən Sərəncamın tətbiqi istiqamətində mühüm tədbirlər görülmüş və işlər öz axarı ilə davam etdirilməkdədir.

Hazırda Ədliyyə Nazirliyi tərəfindən Dünya Bankı ilə birgə həyata keçirilən “Ədliyyə sisteminin müasirləşdirilməsi” layihəsi çərçivəsində ədliyyə orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar irimiqyaslı işlər görülür. Məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, inzibati binalarla təmin edilməsi və fəaliyyəti üçün lazımi iş şəraitinin yaradılması ilə bağlı konkret addımlar atılmış, məhkəmələr üçün yeni inzibati binaların inşası həyata keçirilmişdir. Məhkəmələrin yüksək statuslarına uyğun layihələndirilən belə binalarda bütün müasir tələblər nəzərə alınıb. Bu işlər bu gün də uğurla davam edir.

Ədliyyə orqanlarının yaranmasının 100-cü ildönümü təkcə bu orqanda çalışanlar üçün deyil, ölkənin demokratikləşməsi, qanunçuluğun və hüquq qaydalarının təminatı kursunun bütün tərəfdarları üçün əlamətdar gündür. Bu gün Sumqayıt Apelyasiya Məhkəməsinin kollektivi də ədliyyə işçilərinin peşə bayramını iftixarla qeyd edir, dövlət başçısının məhkəmə və ədliyyə orqanları qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, qanunların aliliyinin təmin olunması üçün var qüvvəsi ilə çalışır.

**Şəmsəddin ABASOV,**
**Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi.**

# Azərbaycan ədliyyəsinin inkişafına qayğı

**Doğma Azərbaycanımız bir əsrdə iki dəfə müstəqillik qazanmışdır. Müstəqilliyi qazanmaq nə qədər çətin olsa da, onu qoruyub saxlamaq ondan qat-qat ağırdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, birinci dəfə əldə olunan bu şirin nemətin ömrü o qədər də uzun olmadı. Məlum olduğu kimi, bolşeviklər yetmiş il qardaş bildiyimiz Qızıl Ordu adlandırılan insan qatilləri təzəcə yaranan Xalq Cümhuriyyətini devirdilər. Azərbaycan Xalq Cümhuriyyəti iki ilə yaxın fəaliyyət göstərsə də, çox şərəfli bir yol keçmişdir. Həmin dövrdə bir sıra nazirlik və komitələr yaradılmışdır. O dövrdə ədliyyə sisteminin yaranmasına çox böyük zərurət olduğundan 1918-ci il 28 may tarixində müstəqilliyin elan olunması ilə yanaşı, Azərbaycan Ədliyyə Nazirliyi də fəaliyyətə başladı. Lakin iyirmi üç aydan sonra müsəlman Şərqində yaranmış ilk demokratik, müstəqil dövlət AXC süquta uğradıqdan sonra Ədliyyə Nazirliyi də ləğv olundu.**

Ancaq xalqımızın xilaskarı, Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin 70-ci illərdə respublikaya rəhbər təyinatından sonra ölkə tərəqqi və inkişaf yoluna qədəm qoymuş, bütün sahələrdə, o cümlədən Ədliyyə Sistemində yeni bir era başladı. Bu sistemin cəmiyyətdə nüfuzunu artırmaq üçün bir sıra vacib addımlar atıldı. Nazirliyin Əsasnaməsi təsdiq olundu. 1970-ci il 27 oktyabr tarixində Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sərbəst fəaliyyətə başlamışdır. Nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardım yaxşılaşmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, bir sözlə ədliyyə işi təkmilləşmiş, onun inkişafı üçün zəmin yaranmışdır.

Azərbaycanın ikinci dəfə müstəqilliyinin ilk illərində respublikada hər tərəfdə xaos, pərakəndəlik və özbaşınalıq hökm sürdüyündən bütün sahələr kimi, Ədliyyə Sisteminin fəaliyyəti də iflic vəziyyətində idi. Bu zaman ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Ədliyyə Sistemi tərəqqi dövrünə qədəm qoydu. Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə müstəqil dövlətin Ədliyyə Nazirliyinin ilk Əsasnaməsi təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir. Bu gün ölkəmizi inamlı addımlarla irəliyə aparan dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin nəticəsidir ki, Azərbaycanda insan amili prioritet götürülür. Vətəndaşların hüquq və azadlıqları tam təmin olunmuşdur. Azərbaycanın müstəqilliyi dövründə ilk dəfə olaraq cənab Prezidentin 18 aprel 2006-cı il tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında əsasnamə təsdiq edilərək nazirliyə hüquq-mühafizə orqanı status verilmişdir.

Ədliyyə Sisteminin bütün sahələrində olduğu kimi, notariat haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanunda bütün notariat qaydalar öz əksini tapmışdır. Azərbaycanın brendi sayılan ASAN xidmət məntəqələrində notariusların əhaliyə xidmət göstərməsi bu işdə şəffaflığın qorunmasına xidmət edərək əhali tərəfindən birmənalı şəkildə böyük rəğbətlə qarşılanır. Əhaliyə göstərilən notarial xidmət zamanı heç bir birokratçılığa yol verilmir. Bu sahədə çalışanların fəaliyyətini normal davam etdirilmələri üçün respublikanın hər yerində müasir standartlara cavab verən binalar inşa və ya əsaslı təmir olunaraq əməkdaşların istifadəsinə verilir. Bu günlərdə Ağstafa rayonunda da 100 kvadratmetr sahəsi olan Notariat kontoru əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Binada işçilər üçün bütün lazımi şərait yaradılmış, bina yeni avadanlıq və İKT sistemi ilə təmin olunmuşdur. Burada müdir otağı, arxiv otağı, vətəndaşlara xidmət göstərən böyük zal və digər otaqlar fəaliyyət göstərir. Vətəndaşlara göstərilən xidmət elektron qaydada həyata keçirilir. Dövlətimizin bu sahədə çalışan insanlara hədsiz diqqət və qayğısından ruhlanan ədliyyə işçiləri bundan sonrakı fəaliyyətlərini daha şəffaf və mükəmməl həyata keçirməyi hədəf seçmişlər. Fürsətdən istifadə edərək bütün həmkarlarımı Azərbaycan ədliyyəsinin yaranmasının yüzilliyi münasibəti ilə təbrik edirəm.

**Sabit MUSAYEV,**
**Ağstafa Notariat kontorunun notariusu,**
**birinci dərəcəli ədliyyə qulluqçusu.**

# Azərbaycan ədliyyəsi yeni tərəqqi mərhələsini yaşayır

**1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycanda dövlətçiliyin yeni mərhələsi — demokratik idarəçilik ənənələrinin formalaşması prosesi başlandı, bəşəri inkişafın yaratdığı mütərəqqi ictimai-siyasi görüşlərə söykənən nəhəng Şərqdə dövlətçilik ənənələrinin təməli atıldı. Şərqdə yaranan bu ilk respublika həm də milli mədəniyyətimizin üzərində qurularaq, xalqımızın milli şüurunun inkişafını, milli varlığımızın qorunub saxlanmasını öz siyasətində prioritet məsələyə çevirdi. Təsadüfi deyil ki, 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün ədliyyə sisteminə böyük əhəmiyyət verilərək Ədliyyə Nazirliyi təsis edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz nitqində bildirmişdir ki, "... Ədliyyəsi olmayan məmləkətdə tərəqqi olmaz, məmləkət irəliləməz".**

Dövlətçilik tariximizdə özünəməxsus yeri olan Azərbaycan ədliyyəsi barədə 100 illik yubiley ərəfəsində söhbət açmaq olduqca fərəhlidir. Azərbaycan ötən illərdə hüquqi dövlət və vətəndaş cəmiyyətinə keçid prosesini uğurla başa çatdırmış, demokratik inkişaf yolunun dönməzliyini təmin etmişdir. Ölkəmizin müasir inkişaf trendinin səciyyəvi cəhətlərindən biri də səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması məqsədilə ictimai həyatın bütün sahələri üzrə islahatların dərinləşdirilməsi, eləcə də müasir məhkəmə-hüquq sisteminin formalaşdırılmasına xidmət edən ardıcıl tədbirlərin həyata keçirilməsidir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını inamla davam etdirən və yeni dövrün tələblərinə uyğun təkmilləşdirən ölkə Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq məhkəmə hakimiyyətinin davamlı surətdə yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

1995-ci il 12 noyabr tarixində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipinin, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarının, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən mütərəqqi hüquqi islahatlar aparılmaqla notariat sistemi yeni mərhələyə qədəm qoyub, onun fəaliyyətini tənzimləyən "Notariat haqqında" Qanun qəbul olunub. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1973-cü il dekabrın 27-də "Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanunu qəbul edilmişdir. Bu qanun dövlət notariat kontorlarının təşkili və fəaliyyətini tənzimləyən normativ-hüquqi əsasların təkmilləşdirilməsinə yönəlmişdir. Həmin qanunda ilk dəfə olaraq dövlət notariatı haqqında qanunvericiliyin xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də tətbiq edilməsinin nəzərdə tutulmasını mütərəqqi addım saymaq olar. "Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanununun tətbiqi qaydasını müəyyən etmək məqsədilə Azərbaycan SSR ədliyyə naziri 1975-ci il mayın 30-da "Azərbaycan SSR-in dövlət notariat kontorları tərəfindən notariat əməliyyatları aparılması qaydası haqqında" Təlimatı təsdiq etmişdir. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.



1999-cu il noyabrın 26-da Milli Məclis tərəfindən qəbul olunan müstəqil Azərbaycan Respublikasının "Notariat haqqında" Qanunu 2000-ci il yanvarın 30-da rəsmi mətbuatda dərc olunaraq qüvvəyə minmişdir. Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti 18 yanvar 2000-ci il tarixli fərman imzalamışdır. Həmin qanunun tətbiqi qaydasını müəyyən etmək məqsədilə Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli qərarı ilə "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat" təsdiq edilmişdir. Azərbaycan ədliyyəsinin inkişafını təsdiqləyən, göstərən uğurlar bütün sahələri əhatə edir. Ölkənin bugünkü inkişafı ilə addımlayan, mühüm hüquqi islahatlar nəticəsində əhaliyə göstərilən hüquqi xidmətin həcmi və səviyyəsi genişlənən sahəsindən biri də notariat orqanlarının fəaliyyətidir. Son illər ölkədə sosial-iqtisadi yüksəliş nəticəsində vətəndaşlarımıza mülki hüquqi münasibətlərdən irəli gələn məsələlərin həlli üçün geniş imkanlar yaranmışdır.

"Elektron notariat" və "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemləri qurularaq notariat kontorları və qeydiyyat orqanları vahid elektron şəbəkədə birləşdirilib. Bunun nəticəsidir ki, notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli dərəcədə sadələşdirilib. Qeyd etsək ki, bu qaydada notariat hərəkətlərinin aparılmasına yalnız inkişaf etmiş ölkələrdə rast gəlmək mümkündür, inamla deyə bilərik ki, ölkəmizdə notariat sahəsində bu yenilik daha bir uğurun nəticəsi kimi qiymətləndirilməlidir. "E-hökumət" prinsiplərinə uyğun olaraq əhaliyə geniş elektron xidmətlər göstərilir, nazirliyin "e-xidmətlər" bölməsi vasitəsilə vətəndaşlara notariat hərəkətlərinin aparılması qaydalarına, tələb olunan sənədlərə və rüsumların məbləğlərinə dair məlumatlarla tanış olmaq, müvafiq çıxarışlar əldə etmək, banka getmədən bütün ödənişləri kart vasitəsilə nağdsız həyata keçirmək imkanı yaradılıb. Belə xidmətlərdən yararlanmaq üçün notariat kontorlarında universal elektron xidmət köşkləri də tətbiq olunur. Müasir texnologiyalardan istifadə etməklə, həmçinin "Elektron notariat" informasiya sistemi qurularaq, onun əsasnaməsi qəbul edilib. Beynəlxalq təcrübədə yalnız bir neçə inkişaf etmiş dövlətlərdə rast gəlinən belə sistem vasitəsilə notariat kontorları vahid şəbəkədə birləşdirilməklə notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib, ölkə vətəndaşları barədə məlumatlar rəqəmsallaşdırılmaqla və sistemləşdirilməklə notariuslar istənilən avtomobil, şəxsiyyət vəsiqəsinin nömrəsi, ad, soyad və doğum tarixi əsasında şəxsin ailə vəziyyəti, daşınar və daşınmaz əmlak üzrə bağladığı əqdlər barədə tam məlumat əldə etmək imkanına malikdirlər.

Ölkə Prezidentinin təşəbbüsü ilə yaradılan və Azərbaycan brendi sayılan "ASAN xidmət" mərkəzlərində ədliyyə orqanları da müxtəlif mühüm xidmətlər göstərir ki, bunlardan biri də notariat hərəkətlərilə əlaqədar vətəndaşlara göstərilən xidmətdir. Əhaliyə göstərilən hüquqi xidmətin səmərəliliyinin artırılması məqsədi ilə elektron xidmət köşkləri notariat orqanlarında istifadəyə verilib.

Dövlət başçısı cənab İlham Əliyevin ədliyyə fəaliyyətinin müasirləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiqi, insanlara layiqli xidmət göstərilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq aparılan islahatlar çərçivəsində notariat təsisatının təkmilləşdirilməsi, vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üzrə ardıcıl işlər həyata keçirilir.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisin 26 may 2006-cı il tarixli iclasında qəbul edilmiş "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu isə ədliyyə strukturlarında qulluq keçmə qaydalarını və şərtlərini, bu orqanların işçilərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən etmişdir. Qanunda ədliyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi təminatının möhkəmləndirilməsi kimi vacib məqamlar əksini tapmışdır. Bu sahədə ilk addımlar 2004-cü ildə atılmış, nazirliyin tibb, penitensiar və əhalinin dövlət reyestri xidmətlərinə vakant vəzifələrə işə qəbulun açıq müsabiqə əsasında keçirilməsinə başlanılmışdır. 2006-cı ildə dövlət qulluğunun xüsusi növü olan ədliyyə orqanlarına qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi qərara alınmış, dekabrın 9-da Azərbaycan ədliyyəsinin tarixində ilk dəfə olaraq ədliyyə orqanlarında işləmək istəyən namizədlərlə test imtahanı keçirilmişdir.

Bu gün Azərbaycan hüquq sistemində möhtərəm Prezidentimizin həyata keçirdiyi inqilabi dəyişikliklər, insan haqlarının qorunması sahəsində mütərəqqi tədbirlər dünyanın inkişaf etmiş dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilir. Möhtərəm Prezidentimizin misilsiz əməyi ilə yaradılmış yeni hüquq sisteminin bəhrəsi hələ çox-çox illər sonra da görünəcək və gələcək nəsillər onun bu sahədə əvəzsiz xidmətlərinin şahidi olacaqlar. Müstəqil Azərbaycan ulu öndərimiz Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət kursu ilə irəliləyərək, mühüm nailiyyətlər qazanır. Şübhəsiz ki, möhtərəm Prezidentimizin müəyyən etdiyi ədliyyə sisteminin təşkilində və inkişafında hörmətli nazirimiz Fikrət Məmmədovun da böyük xidmətləri vardır.

Biz ədliyyə işçiləri bundan sonra da böyük səy və yüksək məsuliyyət hissi ilə çalışacaq və yeni-yeni nailiyyətlərlə Azərbaycan ədliyyəsinin yubiley illərinə böyük töhfə verəcəyik.

***Zəminə ABDULLAYEVA,***
**Bakı şəhəri 2 saylı Notariat Kontorunun notariusu.**

# Ədliyyə sistemimiz böyük tarixi yol keçmişdir

**Müstəqil Azərbaycan dövlətinin Ədliyyə Nazirliyi ilk dəfə 1918-ci ilin may ayının 28-də - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün yaradılmış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ədliyyə naziri təyin edilmiş və həmin ilin noyabr ayının 22-də nazirliyin Əsasnaməsi təsdiq edilərək, onun funksiya və səlahiyyətləri müəyyən olunmuşdur. Ədliyyə Nazirliyinin dövlətin yaradıldığı gün təsis edilməsi milli dövlət quruculuğunda ədliyyə sisteminə xüsusi əhəmiyyət verilməsinə dəlalət edir.**

Lakin 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. 1930-cu ildə isə Xalq Ədliyyə Komissarlığı da ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət Prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, digər səlahiyyətləri Nazirlər Soveti yanında hüquq komissiyası və ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir. Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Həmin dövrdən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək Ali Məhkəmədən başqa bütün məhkəmə orqanlarına təşkilati rəhbərliyi və məhkəmə idarəçiliyini həyata keçirmiş, əhaliyə hüquqi yardımı, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını, hüquqi biliklərin təbliğini təmin etmişdir. 1972-ci ildə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmiş, ədliyyə sisteminin yeniləşən fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul edilmişdir, ən əsası isə ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranmışdır. 1991-ci ildə xalqımız dövlət müstəqilliyini bərpa etsə də, bundan dərhal sonra onu itirmək təhlükəsi qarşısında qalmışdı. 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəkdi, onun varisi olan müasir Azərbaycan Respublikasının ömrü isə daha qısa ola bilərdi. Həmin dövrdə hakimiyyət əldə etmiş naşı siyasətçilərin xalqa zidd siyasəti nəticəsində ictimai həyatın bütün sahələrində tənəzzül yaranmışdı. Ermənistanın hərbi təcavüzü və torpaqlarımızın işğalı davam edirdi, ölkə vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Belə ağır bir vəziyyətdə xalqın təkidli çağırışı ilə dahi öndər Heydər Əliyev Bakıya qayıtdı və dövlətçiliyimizin qorunmasını öz üzərinə götürdü. ümummilli liderimizin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırıldı, cəbhədə atəşkəsə nail olundu, ordu quruculuğuna başlanıldı, daxili sabitlik bərqərar edildi, ölkəni bürümüş hərtərəfli tənəzzülün qarşısı alındı. Azərbaycan üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində köklü islahatlar həyata keçirildi. İslahatların ən geniş vüsət aldığı sahələrdən biri də hüquq sistemi oldu. 2000-ci ilin aprel ayından Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov təyin edilmişdir.

2000-ci ildə ilk dəfə hakimlərin test üsulu ilə seçimi keçirildi, həmin ilin sentyabr ayından isə yeni 3 pilləli məhkəmə sistemi fəaliyyətə başladı. Görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ sənədlər qəbul edildi. Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olundu. 2006-cı ildə ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq cəmiyyətdə mühüm rolu təsbit edilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmişdir. Həmçinin, ölkə Prezidenti tərəfindən 2006-cı ildə "Ədliyyə orqanlarının inkişafı haqqında", Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunların qəbul edilməsi Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur. 13 dekabr 2007-ci il tarixli Fərmanı ilə işə qəbulun yeni qaydaları müəyyənləşmişdir. Hazırlıqlı hüquqşünaslar müsabiqədən keçərək ədliyyə orqanlarına qulluğa qəbul edilmişlər və uğurlu fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzləri yaradılmışdır. "ASAN xidmət" mərkəzlərinin əsas məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaş məmnunluğunun, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının qarşısının alınması, müasir texnologiyaların tətbiq edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin - "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır. Həmin mərkəzlərdə Ədliyyə Nazirliyinin qeydiyyat və notariat şöbələri də fəaliyyət göstərir.

Ədliyyənin müxtəlif sahələrinə qulluğa qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin işlə təminatını daim diqqətdə saxlanılır. Son illər şəffaf seçimlər əsasında ədliyyə orqanlarına böyük əksəriyyəti gənclər olan 2800-ə yaxın hazırlıqlı, müasir texnologiyalara bələd və mənəvi cəhətdən saf kadrlar qulluğa qəbul olunub. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu ali dövlət orqanında məsul vəzifələrə irəli çəkiliblər.

Həmçinin, penitensiar və tibb xidmətlərinin hazırlıqlı və mənəvi cəhətdən saf gənclərlə komplektləşdirilməsi məqsədi ilə qulluğa qəbulla bağlı açıq müsabiqələr keçirilir, namizədlər müsabiqələrdə geniş iştiraka təşviq olunur, o cümlədən "ASAN Kadr" Karyera Mərkəzinin portalında müvafiq elanlar verilir. Eyni zamanda, təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində müvafiq olaraq penitensiar və tibb sahələri üzrə nazirlik üçün xüsusi ixtisaslı gənc kadrlar hazırlanır. Nazirliyin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri genişləndirilir, ölkə başçısının elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin elektronlaşdırılmasına, mövcud xidmətlərin təkmilləşdirilməsinə dair əlavə tədbirlər müəyyən edilib.

Böyük öndər Heydər Əliyevin işıqlı ideya və amallarına, siyasi irsinə daim sadiq olan müdrik Azərbaycan xalqı yüksək vətəndaş həmrəyliyi göstərərək bu il cənab İlham Əliyevi yenidən ölkə Prezidenti seçməklə öz şərəfli tarixində növbəti uğur və nailiyyətə imza atmış, ölkəmizin davamlı inkişafına təminat əldə etmişdir. 11 aprel tarixində milyonlarla soydaşımız böyük fərəh və iftixar hissi ilə ölkəmizdə azad, demokratik və şəffaf keçirilmiş seçkilərdə cənab İlham Əliyevin inamlı qələbəsini bayram etdi və hər birimiz Azərbaycanda digər demokratik ölkələr üçün örnək olan seçkilərin keçirilməsinin ən yüksək kürsülərdən etiraf olunmasından qürur duyduq.

Hər il noyabr ayının 22-də ədliyyə işçiləri öz peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Müstəqil dövlətimizin banisi, dahi öndər Heydər Əliyevin ədliyyə işçilərinə bəxş etdiyi peşə bayramı bu il xüsusilə əlamətdardır - ədliyyə sistemi həm də 100 illik yubileyini qeyd edir. Azərbaycan ədliyyəsinin bir əsrlik yubileyinin təntənəli keçirilməsi məqsədilə əhatəli tədbirlər planı təsdiq olunmuşdur. Hər il peşə bayramı günündə ədliyyə işçiləri Fəxri Xiyabana gedərək bu bayramı bizlərə bəxş etmiş müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirir və Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin xatirəsini yad edirlər.

**Sevinc HÜSEYNOVA,**
**Gəncə "ASAN Xidmət" mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinin rəisi.**

# İnsan hüquq və azadlıqlarını əks etdirən ali sənəd



**Hüquqi nizamlamada yer alan sənədlər arasında ən alisi dövlətin mahiyyətini açıqlayan, qanunvericilik, icra və məhkəmə orqanlarının funksiyalarını əks etdirən cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı sivil münasibətləri müəyyən edən Konstitusiyadır.**

Konstitusiya hər bir sivil ölkənin əsas qanunu kimi ən ali hüquqi qüvvəyə malikdir. Bu ali sənəd dövlətin quruluşunun və təməlinin prinsiplərini, cəmiyyətin siyasi, hüquqi və iqtisadi əsaslarını təsbit etməklə bərabər vətəndaş hüquqlarını özündə əks etdirir, ölkənin inkişaf prioritetlərini müəyyən edir. Bu mənada dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edən Konstitusiya ali hüquqi xüsusiyyətləri ilə hər bir xalqın və dövlətin həyatında xüsusi rola malikdir. Odur ki, Konstitusiyanın qəbul edildiyi gün hər bir ölkədə xüsusi qeyd edilir. Ölkəmizdə də belədir. Noyabrın 12-si müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul olunduğu gündür.

1991-ci il oktyabr ayının 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı müddəa ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbulu məsələsi gündəmə gəldi. Müstəqilliyin itirilməsi və vətəndaş qarşıdurması təhlükələrini böyük siyasi uzaqgörənliklə aradan qaldıran, siyasi-ictimai sabitliyi bərqərar edən ulu öndər ölkəmizin yeni qanunvericilik bazasının formalaşdırılması məsələsini də diqqətdə saxlayırdı. Digər tərəfdən, Heydər Əliyevin rəhbərliyi ilə başlanan islahatlar artıq Azərbaycanda qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni milli Konstitusiyanın qəbulunu da gündəmə gətirmişdi. Bu isə yeni dövrün çağırış və tələblərinə cavab verməli, müstəqil Azərbaycan dövlətinin və onun xalqının milli maraqlarını, ölkənin özünəməxsus xüsusiyyətlərini, milli-mənəvi dəyərləri unikal formada özündə əks etdirən hüquqi sənəd olmalı idi.

1994-cü ilin iyul ayında Milli Məclisin iclasında ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiyanın fəaliyyətə başlaması qərara alındı. Heydər Əliyev dəfələrlə layihənin açıq müzakirəsini təşkil etdi. Ali sənədin ən yetkin formada olması üçün ulu öndər layihə hazırlanan zaman onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı.

Bütün müzakirələrin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də Azərbaycan vətəndaşları böyük ruh yüksəkliyi şəraitində ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyasını qəbul etdilər. Ölkəmizdə belə bir yüksək səviyyəli Konstitusiyanın qəbul olunması təsadüfi hal olmayıb, çoxəsrlik dövlətçilik ənənələrinin, xalqımızın keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir şanlı səhifə yazıldı. Uzunmüddətli gərgin əməyin məhsulu olan Konstitusiya demokratikliyi, humanistliyi və dolğunluğu ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı. Xalqımızın demokratik dövlət qurmaq və dünya birliyində layiqli yer tutmaq istəyini nümayiş etdirdi.

Konstitusiyanın qəbulundan bir il sonra - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində ulu öndər Heydər Əliyev demişdir: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi olaraq bəyan edilməsi kimi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən ideyaların Konstitusiyasının əsasında dayanması ölkəmizin bu ali sənədinin son dərəcə mütərəqqi olmasının əsas xüsusiyyətləridir. Əsas Qanun ənənəvi hüquqi dövlət ideyalarını özündə ehtiva etməklə yanaşı, bu ideyaların inkişaf meyillərini də nəzərə alıb, onları özünəməxsus milli dəyərlər və təsdiq olunmuş müasir yanaşmalarla zənginləşdirib. Ümumilikdə isə Azərbaycan Konstitusiyasının hüquqi fəlsəfəsində bir ali məqsəd - insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı məramı dayanır. Bu mənada insan şəxsiyyətinin toxunulmazlığı, onun həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmini, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir.

Ölkəmizdə bir neçə dəfə konstitusiya islahatı həyata keçirilib. İlk dəfə - 2002-ci ildə Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac məhz bütün sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 22 iyun 2002-ci il tarixli Fərmanına əsasən 2002-ci il avqustun 24-də keçirilmiş referendumun nəticəsi kimi Konstitusiyaya bir sıra mütərəqqi dəyişikliklər edildi. Dəyişikliklər məhkəmə islahatlarının həyata keçirilməsinə, Milli Məclisin fəaliyyətinin, seçki sisteminin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət etdi.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının dövlət dəstəyi ilə əhatə olunması, Avratlantik məkana inteqrasiya, bütövlükdə respublikanın həyatında özünü qabarıq göstərən fundamental dəyişikliklər və pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklər edilməsini gündəmə gətirdi. Başqa sözlə, sürətlə bir-birini əvəzləyən uğurlar Konstitusiyaya nəzər salmağı və onu daha da təkmilləşdirməyi zəruri etdi.

Bu məqsədlə 2009-cu il martın 18-də keçirilən referendum Azərbaycan xalqının demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan konstitusiya islahatlarını dəstəklədiyini təsdiq etdi. Yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçildi. Respublikamızda sosial-iqtisadi inkişafa paralel şəkildə hüquqi və siyasi islahatların da genişləndirilməsinə təminat yaradan konstitusiya islahatı həm də xalqın hakimiyyətə olan inamının bariz təcəssümü kimi diqqəti çəkdi. Bütövlükdə isə referenduma çıxarılan məsələlərin xalq tərəfindən dəstəklənməsi göstərdi ki, ölkəmizin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi uğurlarla qürur duyan xalqımız daha təminatlı gələcəyə, yüksək maddi-sosial rifaha, davamlı demokratikləşməyə aparan mövcud siyasi kursa alternativ görmür.

Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib.

Bu isə o deməkdir ki, 23 il öncə ölkəmizdə yüksək səviyyəli Konstitusiyanın qəbul olunması təsadüfi olmayıb, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinin və keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Elə buna görə də Azərbaycan Konstitusiyası ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək bugünün reallıqlarını, dövlətimizin və cəmiyyətimizin inkişaf perspektivlərini, xalqımızın sülhə, tərəqqiyə, bəşəriyyətin sivil inkişafına öz töhfəsini bəxş etmək əzmini və iradəsini özündə əks etdirir.

**Mahir MUSAYEV,**
**"Caspian Catering Cervice" şirkətinin direktoru.**

# Şabran: sahibkarlığın inkişafı üçün imkanlar genişdir




**Şabran rayonunda sahibkarlığın inkişafı, yeni infrastruktur layihələrinin icrası, iş yerlərinin açılması istiqamətində son vaxtlar xeyli iş görülmüşdür. Rayonda kənd təsərrüfatının inkişafına diqqət artırılmışdır. Yaxın vaxtlarda bu sahədə yeni istehsal müəssisələrinin açılması nəzərdə tutulub. Sosial quruculuq, məktəb tikintisi və digər işlər də öz ahəngi ilə davam edir.**

Bütün bunlar barədə rayon icra hakimiyyətinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağında geniş məlumat verilmiş, görülən işlər ətraflı təhlil olunmuşdur. Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən **RİH başçısı Novruz Novruzov** qeyd etmişdir ki, rayonumuzda sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılmışdır. 9 ayda sahibkarlıq subyektlərinin sayı 447 vahid artaraq 6333 nəfərə çatmışdır. Bu ilin 9 ayı ərzində 14 özəl müəssisə yaradılmışdır. Hazırda rayonumuzda 165 özəl müəssisə fəaliyyət göstərir.

Rayonun Padar kəndi ərazisində “Glass House” MMC tərəfindən 0.3 hektar sahədə Logistik Mərkəzin tikintisi və Rəhimli kəndi ərazisində “Baba” MMC şirkəti tərəfindən 3 hektar ərazidə qamış bitkisindən (ölkədəki 19 min hektar qamış bitkisinin 2227 hektarı Şabranda bitir) fanera, tara istehsalı fabrikinin yaradılması üçün sənədləşmə işləri aparılır.

Cənab Prezidentin iclasdakı nitqində Masallı Sənaye Parkının açılışını vurğulayaraq ölkədə sənaye parklarının fəaliyyətini yüksək qiymətləndirmiş və daha 2 sənaye məhəlləsinin yaradılması prosesinin davam etdiyini bildirmişdir.

1738 hektar ərazini əhatə edən “Şabran Aqropark”ında 150 min kub su tutumu olan su anbarı, 94 kilometr drenaj şəbəkəsi və 5.2 kilometr beton kanal tikilib yekunlaşmış, su anbarı isə su ilə doldurulmuş, 18 pivot layihədən 10 pivot layihənin quraşdırılması yekunlaşmış və ərazidə digər infrastruktur layihələri: - 5 yarımstansiyanın quraşdırılması və 17.5 kilometr işıq xəttinin çəkilişi işləri aparılır. “Çıraqqala Aqropark”ında meliorasiya işləri davam edir, indiyə kimi 1300 hektara yaxın sahənin meliorasiya və irriqasiya sistemi qurulmuşdur.

Cənab Prezident iclasda kənd təsərrüfatının əsas sahələri: - taxılçılıq, pambıqçılıq, üzümçülük, zeytunçuluq, meyvəçilik, tütünçülük, tərəvəzçilik və baramaçılıq sahələrinin inkişafı ilə bağlı hədəfləri müəyyənləşdirərək qarşıya xüsusi vəzifələr qoymuşdur.

Rayonumuzda meyvəçiliyin gəlir gətirən - xurma, nar, fındıq, qoz və badam bağlarının salınması sahələrinə fermerlər tərəfindən böyük maraq göstərilir.

Digər sahələr kimi, tərəvəzçilik də rayonumuzun ənənəvi, fermerlərə gəlir gətirən sahələrindən biridir. İl ərzində rayonda 6303 ton tərəvəz məhsulu, 3699 ton pomidor, o cümlədən istixana şəraitində isə 393 ton istehsal edilmişdir. Hazırda rayonda 11 hektar istixana fəaliyyət göstərir.

100 min hektar torpaq sahəsinə suvarma suyunun verilməsi, 270-dən çox subartezian quyusunun qazılması, “Şabran Aqroparkı”nda 1700 hektar, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində Xızı, Siyəzən və Şabran rayonlarında 20 min hektara yaxın torpaqların suvarılması kənd təsərrüfatında məhsuldarlığın daha da artıracaq, aqroparklar və iri təsərrüfatlar tərəfindən həmin torpaqlar yeni əkin dövriyyəsinə cəlb ediləcəkdir.

Qorğan, Bilici-Qorğan kəndlərinə təbii qazın verilməsi təmin olunmuş, Sumaqova-Qazma kəndlərində son tamamlama işləri aparılır.

Şabran Elektrik Şəbəkəsi tərəfindən rayon ərazisində 10 kV-luq hava xəttində 181 ədəd dayaq basdırılmış, 400 ədəd izolyator bağlanmış, 10 km zədəli naqil dəyişdirilmişdir. 0.4 kV-luq hava xətti üzrə 785 ədəd dayaq basdırılmış və 24.3 km SİP kabelləşmə aparılmışdır.

Rayonumuzda məktəb tikintisinə də diqqət yetirilir. Şəhər 1 saylı ümumi orta məktəbinin tikintisi, Xəlfələr kənd ümumi orta və Qazbabalı kənd ibtidai modul tipli məktəb binalarının quraşdırılması, şəhərin Heydər Əliyev prospektində sahəsi 600 kvadratmetr olan 100 yerlik uşaq bağçasında tikinti işləri yekunlaşmaq üzrədir.

İlin sonunadək “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Şabran rayonunda regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi, xalça istehsalı müəssisəsinin tikintisi işləri yekunlaşdırılacaqdır.

Cari ilin ötən dövründə Şabran şəhərində quruculuq və abadlıq işləri davam etmiş, şəhərin küçə və parklarında xeyli təmir-tikinti işləri görülmüş, şəhərin işıqlandırma sistemi yenilənmişdir.

Yığıncaqda rayon maliyyə şöbəsinin müdiri Bəxtiyar Nəzərov, rayon suvarma sistemləri idarəsinin rəisi Adil Şamilov və rayon telekommunikasiya qovşağının rəisi Əli Xəbərov çıxış etmişlər.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**

# DAŞKƏSƏN RAYONU 2018-ci İLİN DOQQUZ AYINI UĞURLA BAŞA VURMUŞDUR




**Daşkəsən Rayon İcra Hakimiyyətinin akt zalında icra hakimiyyətinin, YAP rayon təşkilatının nümayəndələrinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin, İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, bələdiyyə sədrlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin, iş adamlarının, rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə ölkə başçısının nitqindən irəli gələn məsələlərlə bağlı geniş yığıncaq keçirilmişdir.**

Yığıncağı giriş sözü ilə açan **Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev** qonaqları və yığıncaq iştirakçılarını salamlayaraq, geniş və əhatəli hesabat məruzəsi ilə çıxış edərək qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son on beş il ərzində uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, əhalinin rifahı yüksəlib, xüsusilə ölkəmizdəki sabitlik, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb, yeni-yeni nailiyyətlər, qələbələr qazanılıb. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir.

Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsəndə də 2018-ci ilin doqquz ayı ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən “Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7%) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur. Möhtərəm Prezident cənab İlham Əliyev “Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” müvafiq Sərəncamına əsasən Daşkəsən şəhəri Alunitdağ qəsəbəsinin içməli su ilə təminatının yaxşılaşdırılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür.

Xoşbulaq kənd həkim məntəqəsində təmir işləri aparılmışdır. Güneykənd kənd tam və Şahvəlşdli kənd ümumi orta məktəblərində yeni modul tipli məktəb binalarının quraşdırılmasında son tamamlama işləri görülür. Daşkəsən qəsəbə, Almalı və Gurbulaq kənd ümumi orta məktəblərində isə modul tipli məktəb binalarının quraşdırılması işləri davam etdirilir.

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 2018-ci ilin 9 ayı ərzində 223 baş heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 105 baş bala alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə 2018-ci ilin fevral ayının 10-dan 11 may 2018-ci il tarixə kimi ölkədə əhalinin sağlamlığını təmin etmək üçün tibbi müayinə günü təşkil edilmişdir.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 2013-cü ildə 53 bənddən ibarət olan “Yeni Daşkəsən” layihəsi elmi əsaslarla işlənib hazırlanmışdır. Daşkəsənin hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti, ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şərait yaradılması, mövcud problemlərin həlli, o cümlədən də Daşkəsən şəhəri “Daşkəsən Filizsaflaşdırma” Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılması əsas götürülərək “Daşkəsən Filizsaflaşdırma” Açıq Səhmdar Cəmiyyətinin, eləcə də “Alunit” istehsalat sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Əsasən yerli əhalinin mədən sahəsində işə qəbuluna üstünlük verən “AzerGold” QSC tərəfindən hazırda 450-dən çox işçi “Çovdar” filiz emalı sahəsində daimi işlə təmin edilib. Baş vermiş təbii fəlakət - güclü leysan yağışları nəticəsində yaranmış sel suları rayon ərazisində xeyli ziyan vurmuşdur. Təbii fəlakət nəticəsində rayonun Təzəkənd, Pirverdilər, Rəsullu, Xoşbulaq, Qazaxyolçular, Qaraqullar kəndləri ərazisindəki obyektlərə daha çox zərər dəymişdir. Dəymiş ziyanların aradan qaldırılması üçün aidiyyəti üzrə müəyyən işlər görülmüşdür və həmin işlər davam etdirilir.

2018-ci ilin 9 ayı ərzində 31 nömrəli Yol İstismarı MMC tərəfindən respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri üzrə 722,2 min manatlıq iş görülmüşdür. Cari ilin doqquz ayında əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir. Daşkəsən Elektrik Şəbəkəsi tərəfindən zədələnmiş 5 ədəd müxtəlif güclü transformator dəyişdirilmiş, 27 ədəd 10-6/0,4kV-luq yarımstansiyada və 23,6 kilometr elektrikverici xətlərdə təmir işləri aparılmışdır

Məruzə ətrafında rayon üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN Nüsrət Vəliyev, Daşkəsən Telekommunikasiya Qovşağının rəisi Aslan Rüstəmov və digərləri öz çıxışlarında qarşıda duran vəzifələrin icrasından söz açmışlar. Sonra toplantı iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

# Araz çayının yeni qol-kanalı ölkə iqtisadiyyatında daha bir uğurlu hadisədir

***Qısa müddət ərzində inşa olunan və “Arazın qol kanalı” adlanan kanal dövlət başçısı cənab İlham Əliyevin xeyir-duası ilə istifadəyə verildi. Arazın yeni qol kanalı min hektarlarla istifadəsiz torpağa var-dövət, ruzi-bərəkət, bol məhsul, firavan həyat bəxş edəcək.***

Həddindən artıq qısa müddətdə, cəmisi 4-5 ay ərzində, özü də qış fəslində hava temperaturunun 3-4, bəzən ondan da artıq soyuqlar göstərdiyi, yağışlı, küləkli günlərdə, heç bir daldanacağı olmayan küdrüdə 54,2 kilometr uzunluğunda kanal çəkmək-hər cür tərifə, xoş sözə layiqdir. Mühüm layihənin müvəffəqiyyətlə ərsəyə gəlməsi uzun illər boyu zəngin təcrübə qazanıb demək mümkünsə, oturuşmuş bir kollektivin-Sabirabad rayonunda yerləşən “Muğansutikinti” ASC melioratorlarının gərgin əməyinin bəhrəsidir. İnşaatçılar cəmisi bir neçə ay ərzində Muğanın min hektarlarla suya həsrət torpaqlarına kanal çəkməklə dövlət başçısı cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatını inkişaf etdirmək sahəsində qarşıya qoyduğu mühüm vəzifələrdən birinə həyat vəsiqəsi veriblər. Arazdan Muğana qol kanalının çəkilməsinin təşəbbüskarı, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadənin “Muğansutikinti”yə göstərdiyi etimad bir daha özünü doğruldub.



“Etimad”dan danışarkən bu kollektivin həyatında 90-cı illərdə baş vermiş bir hadisəni xatırlamaq yerinə düşər. O vaxt ulu öndər Heydər Əliyevin göstərişi ilə Xəzərdən başlanıb Şirvanın içərilərinə qədər uzanan 141 kilometrlik Baş Mil-Muğan Kollektorunun inşası da “Muğansutikinti” tərəfindən həyata keçirilmişdi. Mütəxəssislərin haqlı olaraq bu ərazi üçün “arterial qan damarı” hesab etdikləri kollektor Muğan-Şirvan çöllərində min hektarlarla torpağın safa çıxmasında müstəsna əhəmiyyət kəsb edib.

Bəli, Muğana Arazdan yeni qol uzanır. Mən jurnalist marağı ilə işlərin qızğın getdiyi vaxtlarda bir neçə dəfə inşaatçılarla görüşmüşəm. “Muğansutikinti” ASC-nin sədri Vaqif Qurbanovun iş otağında yeni kanalın çəkilişinə hansı zərurətin yaranması barədə dəfələrlə söhbət etmişik. Burada kiçik bir haşiyəyə çıxıb deməliyəm ki, kanalda işlərin başa çatdığı vaxtda, iyun ayının 5-də, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı işçilərinin peşə bayramında Vaqif Qurbanov dövlət başçısının sərəncamı ilə “Respublikanın Əməkdar mühəndisi” fəxri adına layiq görüldüyünə görə razılığını bildirdi:

– Mənə verilən fəxri ad kollektivin əməyinə verilən qiymətdir. Yüksək etimada görə ölkə Prezidenti cənab İlham Əliyevə, kollektivimizə daimi olaraq qayğı və diqqətini əsirgəməyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm.

Vaqif müəllim yeni qol kanalının çəkilişi ilə bağlı öz mütəxəssis fikrini bildirərək dedi:

– 2010-cu ildə baş verən təbii fəlakətsu daşqınları hamımızın yadındadır. Təbii fəlakətin bir səbəbi Kür çayı idisə, digər səbəbi Arazda suyun səviyyəsinin görünməmiş dərəcədə artması idi. O vaxt rəhbərliyin təşəbbüsü ilə Bəhrəmtəpə qovşağından başlayaraq Arazın birinci mərhələdə 5 kilometr uzunluğunda yeni qolu tikildi. Yeni qola qapılar qoyuldu. Məqsəd o idi ki, Arazda bir daha daşqınlar baş verərsə, qapıları açmaqla sel təhlükəsinin qarşısı alınsın. Muğana təzə çəkilən kanal öz mənbəyini qapıları açmaqla həmin qoldan götürəcək.

Bəli, 54,2 kilometr uzunluğu olan yeni kanal ölkəmizdə aqrar sahənin görünməmiş sürətli inkişafında yeni mərhələ olacaq. Dövlət başçısı cənab İlham Əliyevin neft sektorundan asılılığı aradan qaldırmaq barədə irəli sürdüyü təşəbbüs artıq öz bəhrəsini verməkdədir. Hər yerdə ciddi axtarışlar gedir. Əkin dövriyyəsinin həcmini artırmaq, istifadəsiz qalan torpaqlara yeni həyat gətirmək prioritet hesab olunur. Belə torpaqların həcmi Muğanda min hektarlarla ölçülür. Təbii ki, yeni dövriyyəyə qatılan torpaqlar suvarma suyu ilə təmin olunmalıdır. Bu qayğının məsuliyyəti Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin öhdəsinə düşür. Yeni qol Saatlı, İmişli, Biləsuvar rayonlarından 53 min hektar yeni dövriyyəyə daxil olan torpaqları suvarma suyu ilə təmin edəcəkdir. Perspektivdə Biləsuvar və Sabirabad rayonlarının daha 10 min hektar azməhsuldar sahələrinin suvarma suyu ilə təmin edilməsi mümkün olacaq. Araz çayının yeni qolundan Saatlı, İmişli və Biləsuvar rayonlarının dediyimiz kimi 53 min hektar torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün ümumi uzunluğu 175,46 kilometr, müxtəlif suburaxma qabiliyyəti olan paylayıcı kanalların qurğularla birgə tikintisi 2 mərhələdə nəzərdə tutulub və bu il inşaat işlərinə başlanılıb. Araz çayının yeni qol-kanalı regionda pambıqçılığın, taxılçılığın və digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının inkişafı məqsədilə aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin yaradılmasına geniş meydan verir.

Budur, artıq yeni qol kanalı cəmisi bir neçə gün bundan əvvəl dövlət başçısı cənab İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilib. 54,2 kilometr uzunluğunda kanalın hidrotexniki qurğularla birgə inşası həyata keçirilib. Kanalın başlanğıcda suburaxma qabiliyyəti saniyədə 46, sonda isə 24 kubmetr təşkil edir. Kanal üzərində 84 müxtəlif təyinatlı hidrotexniki qurğu, o cümlədən 14 avtomobil körpüsü inşa olunub.

Divarları gümüşü rəngə çalan kanalın üzərində salınmış yolla irəliləyirik. Arazdan 2010-cu ildə çəkilmiş qolun ərazisindəyik. Muğana gedən qol qeyd etdiyimiz kimi, öz başlanğıcını buradan götürür. Geniş çöllərə uzanan kanal, sözün əsl mənasında göz oxşayır. Yuxarı hissədən eni 16,2 metr, dib hissədən eni 6 metr, dərinliyi 3,4 metr olan kanalın üzərində qeyd etdiyimiz kimi 84 ədəd müxtəlif təyinatlı hidrotexniki qurğu quraşdırılıb. Bunlar suburaxıcı qapılardan, dükkerlər, piyada keçidləri, alt keçidlər və sair qurğulardan ibarətdir. Kanalın üzərindəki körpüləri xüsusi qeyd etmək lazım gəlir, hər birinin uzunluğu 18-20 metr aşırımlı körpülər gələcəkdə kənd təsərrüfatı işlərinin aparılması üçün son dərəcə əlverişli şərait yaradacaq. Bununla yanaşı, 7 ədəd səviyyə qaldıran qurğu kanalın etbarlı və davamlı işinə təminat verəcək. Kanalın üst tərəfində yol salınıb. Maşınımız bu yolda rahatlıqla hərəkət edir. Amma Vaqif müəllim kanalın çəkilişi müddətində işin təşkilindən, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin göstərdiyi köməklikdən razılıq hissi ilə danışır. Buradaca mənə məlum olur ki, kanalın sürətlə, keyfiyyətlə çəkilişində əsas göstərici işin təşkilindən ibarətdir. Təkcə Muğan-Şirvan regionunda deyil, respublikada bir çox iri layihələrin icrasını həyata keçirən təcrübəli inşaatçı - meliorator qısa müddət ərzində Araz qolunun tikintisində son dərəcə çevik, mükəmməl iş təşkil edə bilib. Kanalın çəkilişinə 860 nəfərə yaxın işçi qüvvəsi, 283 ədəd maşın-mexanizm cəlb olunub. Fəhlələr arasında Şirvan şəhərindən, Saatlı, Salyan, Neftçala və digər rayonlardan gələnlər var. İşçilərə yataqxanalarda yer ayrılıb, onlar hər gün 3 dəfə pulsuz yeməklə təmin olunublar.

Biz Araz qolunun lap axırına kimi gedirik. Ucsuz-bucaqsız düzənliklərdə heç kəs gözə dəymir. Bu mənzərə, bu görkəm müvəqqətidir. Bomboz çöllərə su gəldisə, deməli, bu yerlərin əsl qaynar həyatı da yaxınlıqdadır.

**Tofiq HÜSEYN,**
**“Respublika.”**

# Qax: Qocalar da, tənhalar da sosial xidmətdən razıdırlar



**—Uşaqlıq yaşına uyğun uşaqlıq həyatını keçirmisənsə, qocalanda, kimsəsiz olub tənha yaşayanda yaş səni istər-istəməz ikinci dəfə uşaqlıq gəmisinin sərnişini edir. Amma bu dəfə uşaqlığa xas olan çılğınlıqla, qaynarlıqla yox, el deyimində deyildiyi kimi, ağır oturub batman gəlməyinlə, dəyərli ağsaqqal məsləhət və tövsiyələrinlə yadda qalırsan. Qocalıq gəmisində oturub keçən günləri, tənhalığın bəxtinə necə qismət olduğunu kövrək hisslərlə xəyalında canlandırıb, gözlərin qarşısından kino lenti kimi ötürürsən. Qocalığın fəxrindən, tənhalığın üzgünlüyündən gözlərindən yanaqlarına süzülüb gələn sevinc və kədər göz yaşları sənə ürəyində bu sözləri pıçıldadır: Keçən günə gün çatmaz, calasan günü-günə, mən tənha deyiləm, minlərin, milyonların, qüdrətli dövlətimin diqqəti, qayğısı mənimlədir. Hətta Azərbaycan kimi qüdrətli dövlətin vətəndaşı olmağınla qürrələnirsən də, ən əsası da fərəhin o olur ki, nə yaxşı ki, dövlətimizdə sənin kimilərin diqqət və qayğısı bir gün olsun unudulmur, həmişə hər yanda hörmət və ehtiram görürsən. Bu qayğı və diqqəti, hörmət və məhəbbəti respublikamızın şimal-qərb bölgəsində ünvanlanan, qocaman Qafqaz dağlarına söykənən, dağ vüqarlı Qax rayonunda da gördük.**

Dövlət Sosial Müdafiə Fondu Qax Rayon Şöbəsinin müdiri Vüqar Əhmədzadə də yuxarıdakı fikirləri bizimlə bölüşərək söhbətinin davamında dedi ki, unutsan, gələcəkdə özün də unudularsan. O, sonrakı söhbətini də bu cür notlar üstündə köklədi. Yeri gəlmişkən xatırladaq ki, kollektivin bütün üzvləri fondun xidmətindən istifadə edənlərin hamısı ilə “dil tapmağı” da, onların kövrəkləşən, uşaqlaşan ürəklərinə təskinlik, toxtaqlıq gətirməyi də yaxşı bacarırlar. Belə olmasaydı, buranı özlərinin ümid qapısı kimi tanımazdılar. Yaxın günlərdə biz də yolumuzu bəzi qocaların, tənha və kimsəsizlərin yaşadıqları ünvanlardan salıb yuxarıda söylədiklərimizin canlı şahidi olmaq qərarına gəldik. Rayon mərkəzində müxtəlif ünvanlarda yaşayan ikinci qrup əlil Mehparinin, yaşı yetmiş birdən çox olan, tənhalıq ömrü sürən Əhməd kişinin söhbətindən öyrəndik ki, onların sosial xidmətçisi Əfsanə Kərimova bütün işlərinə çatır, hər qayğıları ilə yaşayır. Qaşqaçaylılar Nazilə və həyat yoldaşı Nadir sosial xidmətçiləri Elnarə Seyidovanı bircə gün görməyəndə darıxdıqlarını söylədilər. Evlərdə xidmətə götürülən tənha ahıllar və əlillər, ümumilikdə rayonun 294 ünvanında yaşayır və onların sayı 339 nəfərdir. Onlara cəmi 35 nəfər sosial xidmət işçisi tərəfindən xidmət göstərilir. Tənha və kimsəsizlərin, əlillərin 285 nəfəri rayonun kəndlərində, 58 nəfəri şəhərdə yaşayır. Yetmişdən yuxarı yaşı olanlar 258 nəfərdir, 8 nəfəri birinci, 74 nəfəri ikinci qrup əlildir. Say çox olsa da, müxtəlif ünvanlarda yaşasalar da, daim sözügedən kollektivin, onun müvafiq sektorunun diqqətindədirlər.

Dövlət Sosial Müdafiə Fondu Qax Rayon Şöbəsi bütün təqaüdçülərin qayğıları ilə yaşamağı da fəaliyyətinin əsası sayır. Şöbənin işçiləri, demək olar, hər gün təqaüdçülərlə ünsiyyətdə olur, onların problemlərini, arzu və istəklərini öyrənib lazımi ünvana çatdırırlar. Onların asudə vaxtlarını səmərəli keçirmələrini, dövlətin nəzərdə tutduğu yardımlardan lazımi qaydada bəhrələnmələrini də şöbənin rəhbərliyi və kollektivi yaddan çıxarmır. -Şəhərdəki veteranlar parkından yolunuzu salsanız, ağsaqqalların, ahılların burada vaxtlarının necə yaxşı keçirdiklərinin şahidi olarsınız - deyə şöbə müdiri Vüqar Əhmədzadə söhbətimizi yekunlaşdırdı.

**Rasim AMANOV,**
**“Respublika”.**

# 10 dövlət əmlakına 49 sifariş

Əmlak Məsələləri Dövlət Komitəsinin tətbiq etdiyi Elektron hərrac sistemi vasitəsilə vətəndaşlar özəlləşmə prosesində daha yaxından iştirak edə bilirlər. Məkan və zaman fərqinin olmadığı hərraclarda yaradılan imkanlar şəffaf mühiti formalaşdıraraq, iştirakçı məmnunluğuna səbəb olur. Yeni və müasir üsulların istifadəsi ilə vətəndaşların hərraclarda iştirak marağı artır, fəallıq nəticəsində rəqabətli mühit yaranır. Hərraclarda iştirakçı statusu qazanan şəxslərlə yanaşı, digər vətəndaşlar da hərraclarda həm onlayn, həm də canlı formada iştirak edə bilərlər.



Dövlət əmlaklarının özəlləşdirilməsində yaradılan fürsətlərdən vətəndaşlar növbəti dəfə 13 noyabrda keçirilən hərracda istifadə etdilər. Hərraca çıxarılan əmlaklardan 10-u üzrə 49 sifariş verilmişdir. Əmlak və sifariş sayı arasında olan böyük fərq hərracda yüksək rəqabətin olduğunu göstərir. Özəlləşməyə çıxarılan dövlət əmlaklarından 3 kiçik dövlət müəssisə və obyekti, 1 yarımçıq tikili, 6 nəqliyyat vasitəsi öz sahibini tapdı. Nəqliyyat vasitələrindən 5-i üzrə ümumilikdə 44 sifarişin verilməsi hərracda rəqabətli mühit yaratdı. Sifarişçilərin fəallığı “VAZ” markalı bu nəqliyyat vasitələrinin ilkin hərrac qiymətlərinin 2 dəfədən çox yüksəlməsinə səbəb oldu.

Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsindəki Əmlak kompleksinin ümumi faydalı sahəsi 1169 kvadratmetrdir. Bu kiçik dövlət müəssisəsi 2480 kvadratmetrlik torpaq sahəsi ilə birgə özəlləşdirildi. Hərracda paytaxtın Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Yesenin küçəsində yerləşən mağaza da özəlləşdirildi. Ümumi faydalı sahəsi 88.5 kvadratmetr olan bu dövlət əmlakı xidmət sahəsi üzrə sahibi üçün gəlirli ola bilər. Tovuz rayonu, Dönük Qırıqlı kəndindəki 10 saylı təsərrüfatlararası təmir səyyar mexaniki dəstənin isə ümumi faydalı sahəsi 1009.9 kvadratmetrdir.

Qeyd edək ki, cari il ərzində komitə tərəfindən ümumilikdə 195-ə yaxın hərrac keçirilib.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# Vətən sevgisinin zirvəsi

## *"Azərbaycan" qəzetində şəhid Elgün İsmayılovun xatirəsinə həsr edilən yaradıcılıq müsabiqəsinə yekun vuruldu*

**Vətən sevgisi sevgilərin ən alisi, ən müqəddəsidir - deyirlər. Onun uğrunda canından keçən hər bir insan isə şəhiddir. Bu zirvəyə yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır.**




AZƏRTAC xəbər verir ki, belə şərəfli ömür sahiblərindən biri də 44-cü doğum günü onsuz keçirilən, şəhidliyinin 24 ili tamam olan Elgün Dağbəyi oğlu İsmayılovdur. Ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhidlik məqamına yüksələn Elgün İsmayılovun əziz və unudulmaz xatirəsi yalnız dünyaya göz açdığı ailədə, oxuduğu məktəbdə deyil, həm də çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında daim anılır, ehtiramla yad edilir.

İşğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda hünər və qeyrətlərini silaha çevirib döyüşlərə yollanan igidlər sırasında əməlinin və hünərinin ucalığında dayanan Elgün də var idi. 1974-cü ildə Bakı şəhərində anadan olan, çalışdığı "Azərbaycan" qəzetində qısa müddət ərzində hamıya qaynayıb-qarışan, torpaqlarımızın mənfur ermənilər tərəfindən işğalına dözməyən Elgün 1993-cü ildə həqiqi hərbi xidmətə çağırıldı. Həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində cəbhə bölgəsinə - Füzuli rayonuna göndərilən Elgün Horadizin düşməndən azad edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə komandanlıq tərəfindən mükafatlandırıldı.

1994-cü ilin yanvarında hərbi briqadanın yeri Kəlbəcər bölgəsinə, Murovdağ istiqamətinə dəyişdirildi. Döyüşçü dostları Elgünü igid və qorxmaz əsgər kimi tanıyırdılar. Komandanlığın onun barəsində verdiyi arayışda göstərilir ki, Elgün İsmayılov mürəkkəb relyefə malik Murovdağda bölüyün keçirdiyi 20 əməliyyatdan 16-sında iştirak edib. 1994-cü il aprelin axırlarında keçirilmiş hərbi əməliyyata görə Elgün İsmayılov komandanlığın Fəxri fərmanına layiq görülür. Mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək qiymətli məlumatlar gətirməyə gedən 4 nəfərlik kəşfiyyat dəstəsinin tərkibində Elgün də var idi. Cəsur əsgər burada düşmən hücumuna məruz qalaraq qızğın döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi.

İş yoldaşları Elgünün xatirəsini hər zaman əziz tuturlar. Hər il doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı müqəddəs məzarını ziyarətlə başlayır. Bu il də Elgünün xatirəsi ona doğma olan kollektivi tərəfindən ehtiramla yad edildi. Şəhidin məzarı üzərinə tər çiçək dəstələri düzüldü və ruhuna dualar oxundu.

Sonra anım mərasimi redaksiyada davam etdirildi. Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov açaraq bildirdi ki, ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun güclü ordusu və əsgərinin vətənpərvərlik, döyüş ruhudur. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan Ordusunun hər bir əsgərinin döyüş əzmi, vətənpərvərlik ruhu ən yüksək səviyyədədir. Bu, son illərdə orduya göstərilən hərtərəfli diqqət və qayğının təcəssümüdür. Ən modern silah-sursat, hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bu il Bakıda keçirilən iki möhtəşəm hərbi paradla bir daha öz qüdrətini nümayiş etdirən Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşması isə qürurvericidir.

Bəxtiyar Sadıqovun sözlərinə görə, hər zaman Ali Baş Komandan kimi səngərdəki əsgərin yanında olub doğma valideyn təki onun qayğısına qalan cənab İlham Əliyevin özü bu gün əsgər atasıdır. Prezident övladının müqəddəs əsgər libası geyinən sadə azərbaycanlı oğulları ilə çiyin-çiyinə dayanması milli ruhu yüksəldən bir hadisədir. Bu, bütün həyatını güclü dövlət qurmağa həsr edən bir liderin təkcə qanunlara ehtiramı yox, həm də xalqın sabahı ilə öz balalarının taleyini necə bir sırada gördüyünün əyani sübutudur. Ölkə rəhbərinin xarakterini də təyin etmək üçün örnək hadisədir. İndi səngərdəki hər bir Azərbaycan əsgəri əmindir ki, döyüş əmri verildikdə, onlar düşmənə qarşı Ali Baş Komandanın oğlu ilə çiyin-çiyinə savaşacaqlar.

"Şəhidlik zirvəsi hünər, qeyrət simvoludur, bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını qurban verən igidlərin xatirəsini anmağa həmişə borcluyuq. Onlar hər zaman sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər", - deyən baş redaktor vurğuladı ki, Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu bugünkü gənclərimizə örnəkdir. Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş Elgün İsmayılovun anadan olduğu gün isə onu tanıyanların hər biri üçün əziz doğuran tarixdir.

Şəhid Elgünün çox qısa, lakin mənalı həyat və döyüş yolundan, Azərbaycan dövlətinin müstəqillik tarixinin şərəfli və keşməkeşli olduğundan söz açan Bəxtiyar Sadıqov onu da xüsusi vurğuladı ki, 2003-cü ildən başlayaraq hər il redaksiyada Elgünün xatirəsinə həsr edilmiş ənənəvi yaradıcılıq müsabiqəsi keçirilir. Artıq 16-cı dəfə keçirilən müsabiqəyə təqdim olunan yazılar bir neçə aspektdən dəyərləndirilir. Eyni zamanda, müsabiqə həm də qəzet əməkdaşlarını vətənpərvərliyə, torpağa məhəbbət mövzusunda yazmağa ruhlandırır. "Azərbaycan" qəzetinin səhifələrində belə yazıların mütəmadi işıq üzü görməsini kollektiv də vacib sayır. Bu cür müsabiqələrin keçirilməsinin əhəmiyyəti həm də ondadır ki, burada yaradıcılığa geniş meydan verilir.

Şəhid Elgün İsmayılovun atası, Əməkdar jurnalist Dağbəyi İsmayılov Vətən uğrunda canlarından keçən hər bir şəhidin şərəfli ömrünün örnək olmasını təbliğ edən qəzetin baş redaktoruna və kollektivinə ailəsi adından təşəkkürünü bildirdi. Şəhid atası dedi ki, Elgünün xatirəsinin ona doğma olan iş yoldaşları tərəfindən ehtiramla yad edilməsi və hər ad günündə məzarı üzərinə tər çiçək dəstələrinin düzülməsi, ruhuna duaların oxunması onu çox qürurlandırır. Bütün bunlar xalqımızın şəhidlərə göstərdiyi əbədi ehtiramın bariz nümunəsidir.

Sonra Bəxtiyar Sadıqov müsabiqənin nəticəsini elan etdi. Builki müsabiqənin yekunlarına görə redaksiyanın əməkdaşları - İradə Əliyeva, Rəşad Bəxşəliyev, Elçin Cəfərov və Sabir Əliyev qalib elan edildilər. Qaliblər "Azərbaycan" qəzetinin Fəxri diplomu və pul mükafatları ilə təltif olundular.

**AZƏRTAC**

*Aşıq Ələsgərin 200 illik yubileyi qarşısında*

# XIX əsrin müdrik ozanı, korifey sənətkar

Aşıq poeziyasının, ədəbiyyatımızın ən uca zirvəsi sayılan böyük ustadımız, Göyçəli Aşıq Ələsgərin adı, şəxsiyyəti, yaradıcılığı xalqımız üçün əziz və doğmadır. Aşıq Ələsgər böyük ustad sahibi kimi xalqımızın əxlaqi sərvətlərini, mənəvi dəyərlərini, adət-ənənələrini, sevincini-kədərini, ictimai dərdlərini çox böyük ustalıqla, uca sənətkarlıqla öz əsərlərində əks etdirmiş, açıb göstərmişdir.

Dədə Ələsgərin əsərlərində təbiət, dağlar, düzlər, çaylar, göllər, şərbət bulaqlar, atlas geyimli dağların ətri, təravəti və gözəlliyi ilə öz əskini tapmışdır.

Çoxəsrlik aşıq poeziyasını əlçatmaz, əzəmətli bir dağa bənzətsək, bu dağın zirvəsində sənət qartalı olan Aşıq Ələsgər dayanır. El sənətkarı ucalığı təkcə sənətkarlıqla yaratdığı gözəl qoşma və gəraylılarına, təcnis, divani və müxəmməslərinə görə deyil, bu zirvəni həm də öz yüksək insani keyfiyyətləri ilə qazanmışdır. Öz yurdunu sevə-sevə gəzən, ona hərtərəfli nəğmələr qoşan Dədə Ələsgər ömrü boyu həm öyrətmiş, həm də xalqdan öyrənmişdir.

Aşıq Ələsgər öz elini - Göyçə gölünün nəğməli sahillərini, başı buludlardan nəm çəkən "Çalmalı" dağının romantik mənzərələrini, bütövlükdə "Qafqaz elini" necə dolandığını ustalıqla, poetik ilhamla qələmə almışdır.

Göyçəli Aşıq Ələsgərin sözlərinə yüzlərlə mahnı və romanslar bəstələnmişdir. O, xalq tərəfindən bu gün də sevə-sevə dinlənilir.

Ölkəmizdə Aşıq Ələsgər irsinin öyrənilməsinə həmişə diqqət yetirilir. 2011-ci ildə Dədə Ələsgərin anadan olmasının 190 illiyi təntənə ilə qeyd olundu. Paytaxtda min bir könüldən aşıq poeziyasına üstünlük verən, Göyçə mahalının yetirməsi, xeyriyyəçi kimi məşhurlaşmış Akif Nəbiyevin təşəbbüsü ilə Dərnəgül Əyləncə Mərkəzində, geniş bir məkanda Dədə Ələsgərə həsr olunmuş yubiley məclisi keçirildi. Tədbirdə bəlkə də minə yaxın saz-söz həvəskarı, Ukrayna, Rusiya Federasiyası, İran və başqa ölkələrdə yaşayan həmvətənlərimiz, müxtəlif bölgələrdən gəlmiş el aşıqları iştirak edirdi. Belə bir əzəmətli tədbir Heydər Əliyev sarayında da keçirildi.



İlhamla hazırlanmış ulu Göyçənin xəritəsi, Aşıq Ələsgərin rəsm əsəri insanlarda xoş ovqat yaradırdı.

İllər ötüb keçəcək, xalqımız el sənətkarı, söz sərrafı Aşıq Ələsgərlə bağlı silsilə tədbirlər keçirən, sidq ürəklə aşıq poeziyasına bağlanan iş adamı Akif Nəbiyevin xidmətlərini heç vaxt unutmayacaqdır. Bir sözlə, o, öz xeyirxah əməlləri ilə aşıqsevərlərin sevimlisinə çevrilmiş, özünə şan-şərəf heykəli ucaltmışdır.

Qarşıdan Göyçə aşıq mühitinin formalaşmasında özünəməxsus dəst-xətti olan, saz-söz dünyasının zirvəsinə ucalan Göyçəli Dədə Ələsgərin anadan olmasının 200 illik yubileyi gəlir. Göyçə aşıq məktəbinin banisi olan Aşıq Ələsgərlə bağlı Akif Nəbiyev silsilə tədbirlərini davam etdirir.

Biz bu günlərdə redaksiyanın tapşırığı ilə tanınmış xeyriyyəçi kimi Akif Nəbiyevlə görüşüb söhbət etdik. O, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Xalqımız Ələsgər kimi qüdrətli, ozan sənətinin inkişafında böyük xidmətləri olan, adı dillərdə gəzən el sənətkarının 200 illik yubileyinə ciddi hazırlaşır. Dədə Ələsgər aşıq poeziyamızın, saz ifaçılarımızın zənginləşməsinə böyük təkan vermiş, öz yüksək sənətkarlığı ilə aşıq sənətinin şöhrətini göylərə qaldırmışdır. Onun dilə gətirdiyi telli sazın simlərindən nələr süzülüb gəlmirdi?

Qeyri-adi istedadı, zəngin biliyi olan Aşıq Ələsgər haqqında professor, mərhum Qara Namazovun tədqiqatları maraqlıdır. Onun tədqiqatlarına görə XIX əsrin 50-ci illərində rus mətbuatında belə bir yazı dərc olunub: "Ələsgər adlı bir aşığın ifaçılıq məhārəti haqqında rus şairi və jurnalisti Y.N.Polonski Tiflisdə yaşadığı illərdə onun keçirdiyi şənlik mərasiminin iştirakçısı olduğunu "Kavkaz" qəzetinin 1851-ci il birinci nömrəsində dərc etdirdiyi məqalədə qeyd etmişdir".



Sidq ürəklə Ələsgər poeziyasına bağlanan Akif Nəbiyev vurğuladı ki, onun təşəbbüsü ilə ötən il Xaçmazda Aşıq Ələsgərin büstünün açılışı oldu. Bu tədbirdə professor Məhərrəm Qasımlı, rayon ictimaiyyətinin nümayəndələri və qonaqlar iştirak edirdi.

Dədə Ələsgərin 200 illik yubileyi yaxınlaşır. Ürəkağrısı ilə vurğulamaq lazımdır ki, Aşıq Ələsgərin doğulub boya-başa çatdığı aşıqlar yurdu Göyçə mahalı 30 ildir ki, erməni işğalı altındadır. Aşıq Ələsgərin Ağkilsə kəndində ucaldılan və tarixə düşən abidəsi nankor ermənilər tərəfindən dağıdılmışdır. Yəqin ki, el sənətkarının adının əbədilməsi üçün lazımi işlər görüləcək, Ələsgərin əzəmətli abidəsi ucaldılacaq, adına küçələr veriləcəkdir.

Vurğulamaq lazımdır ki, Bakının Nərimanov rayonunun ərazisində göyçəli Hüseyn Hacıqulu öz şəxsi evində görkəmli el sənətkarı Aşıq Ələsgərin muzeyini yaratmışdır. Muzeyə gəlib-gedənlərin ardı-arası kəsilmir...

Bu günlərdə isə Qazax şəhərində Dədə Ələsgərin abidəsi ucaldılmışdır.

XIX əsrin müdrik ozanı, korifey ustad, söz sərrafı Dədə Ələsgər aşıq sənətini duru saxlamış, əlində telli sazı el-obanı qarış-qarış gəzmiş, güclü yaddaşı, zəngin söz ehtiyatı ilə xalqın gözündə pillə-pillə ucalmış, sənət möcüzələri yaratmışdır...

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

# "Kür-Araz ovalığında təbii-dağıdıcı hadisələrin məskunlaşmaya təsiri"ndən bəhs edən kitab




**"Avropa" nəşriyyatında nəfis şəkildə çap olunan növbəti kitab belə adlanır - "Kür-Araz ovalığında təbii-dağıdıcı hadisələrin məskunlaşmaya təsiri".**

AZƏRTAC xəbər verir ki, coğrafiya üzrə fəlsəfə doktoru Sima Əliyevanın müəllif olduğu üç fəsildən ibarət 216 səhifəlik kitabda tədqiqatçı alim müasir dünyamızda baş verən ekoloji problemləri, iqlim dəyişikliklərini, xüsusilə də ölkəmizin Kür-Araz ovalığında təbii-dağıdıcı hadisələrin və proseslərin öyrənilməsi və onların məskunlaşmaya təsirini elmi araşdırmaya cəlb edib.

Əsərdə məskunlaşma vahidlərinin davamlı inkişafı və təsərrüfat sahələrinin fəaliyyətinin təmin edilməsi üçün Kür-Araz ovalığında baş verən təbii-dağıdıcı hadisələrin yayılma arealları və intensivliyi, onların baş vermə səbəbləri, təkrarlanması və dağıdıcı gücü, dəyən ziyanların azaldılması, qabaqlayıcı və mühafizə-müdafiə tədbirlərinin görülməsi barədə dolğun və elmi cəhətdən araşdırılmış məlumatlar yer alıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi şurasının qərarı ilə çap olunan kitabın elmi redaktoru coğrafiya üzrə elmlər doktoru, professor N.Babaxanovdur.

Təbii-dağıdıcı hadisələrin çoxaldığı bir zamanda belə bir elmi tədqiqat əsərinin işıq üzü görməsi olduqca əhəmiyyətlidir.

Müəllif yazır: "Kür-Araz ovalığının təbii-coğrafi şəraiti və ərazinin mənimsənilmə xüsusiyyətləri ilə əlaqədar olaraq burada daşqın, subasma, güclü küləklər, quraqlıq və s. kimi təbii-dağıdıcı hadisələr yayılmışdır. Regionda sıx kollektor-drenaj şəbəkəsinin yaradılmasına baxmayaraq, suvarmanın düzgün aparılmaması, sahələrə normadan artıq su verilməsi, kollektorların lillənməsi və su sərfinin aşağı düşməsi son dövrlərdə şoranlaşma sahələrinin xeyli artmasına, torpaqların məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarmışdır. Məhz bu baxımdan, Kür-Araz ovalığında hidrotexniki qurğuların istismarı zamanı baş verə biləcək hadisələrin vura biləcəyi ziyanın azaldılması istiqamətində kompleks tədbirlər işlənib hazırlanmalı, eyni zamanda, istehsal və xidmət obyektlərinin ərazi təşkili, əhalinin məskunlaşması işlərində təbii-dağıdıcı hadisələrin baş verməsi və yayılması areallarının nəzərə alınması günümüzün vacib məsələlərindən biridir. Bu mənada, onların qarşılıqlı əlaqədə öyrənilməsi, iqtisadi-coğrafi aspektdə elmi-tədqiqatların aparılması günün tələbidir".

Əsər iqtisadi coğrafiya ixtisası üzrə təhsil alan ali məktəb tələbələri (bakalavr və magistr) və müəllim heyəti, bu sahədə tədqiqat aparan alim və mütəxəssislər, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, AMEA-nın Coğrafiya İnstitutunun "Demoqrafiya və əhali coğrafiyası" şöbəsinin elmi işçisi kimi bir sıra beynəlxalq simpozium, konfrans və elmi seminarların iştirakçısı olan Sima Əliyeva 30-dan artıq elmi əsərin müəllifidir.

**AZƏRTAC**

# Təqdimat mərasimi

**İqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadə öz dəyərli kitabları ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Bir alim, yazıçı kimi həmişə axtarışdadır, dəfələrlə müxtəlif ölkələrdə olub, görüb və müşahidə etdikləri hadisələr qəlbinin süzgəcindən keçib bir-birindən maraqlı əsərlərə çevrilir.**

Yazıçı, professor Əlibala Məhərrəmzadə "Xocalı soyqırımı", "İlham Əliyevin siyasi və iqtisadi strategiyası", "Azərbaycanda biznes planının tədqiqi nəzəriyyəsi", "Müqəddəsliyə aparan yol", "Bakı üçbucağı" romanı, "Mələyin təbəssümü" və digər əsərləri oxucuların stolüstü kitabına çevrilmişdir.

Yazıçının motivasiya mövzusunda olan —"Ev tapşırığı" kitabı ingilis, rus dillərində də nəşr olunmuşdur.

Bu günlərdə "Azərkitab" mərkəzində yazıçı Əlibala Məhərrəmzadənin nəşr edilmiş **"Çovdar çörəyi"** kitabının təqdimatı keçirildi. Təqdimat mərasimində alimlər, yazıçılar və kitabsevərlər iştirak edirdilər.

Tədbirdə ilk öncə kitabın redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Varis Yolçuyev çıxış edərək olduqca maraqlı süjet xəttinə malik olan, dramatizmlə dolu "Çovdar çörəyi" romanı haqqında dolğun məlumat verdi. Vurğuladı ki, bu roman avtomobil qəzasına düşərək həyatını itirmiş Cəlil adlı iyirmi dörd yaşlı gəncin ölüm səbəblərinin araşdırılmasından bəhs edir.



Əlibala Məhərrəmzadənin "Çovdar çörəyi" romanı dərin, psixoloji ovqatlı, kəskin, kontrastlı, orijinal obraz qaleriyasına, gözəl bədii dili olan lakonik romandır, daha doğrusu, bir nəfəsə oxunan sanballı əsərdir.

Romanın əvvəlində göstərilir ki, gərgin iş rejiminə malik məmur qəhrəman gündəlik həyatından oğurlanıb Türkiyənin Bodrum bölgəsinə gedir, amma tam dincələcəyi, stresi və yorğunluğunu atıb geri dönəcəyi istəyi gözündə qalır. İstirahətinin dördüncü günü Bakıdan zəng gəlir ki, böyük oğlun Cəlil anasına çovdar çörəyi almağa gedərkən avtomobil qəzasına düşərək dünyasını dəyişib. Təcili geri dönür və oğlunun ölümünün təfsilatını öyrəndikdən sonra bu bədbəxt hadisənin birbaşa və dolayı baiskarlarını axtarmağa başlayır. Bu axtarış gözlənilmədən atanın oğlu barədə ağlına belə sığışdırmadığı həqiqətləri öyrənməsinə gətirib çıxarır...

Əlibala Məhərrəmzadənin yuxusuz gecələri, dərin araşdırmaları ilə ərsəyə gətirdiyi "Bir nəfəsə oxunan roman" kateqoriyasına aid edilən "Çovdar çörəyi" romanı geniş oxucu kütləsinin hədsiz marağına səbəb olacaq, hər kəs bu kitabdan nəsə bir şey öyrənəcəkdir.

Roman atalar və oğullar arasında, ümumən valideynlərilə övladlar arasında yaranan uçurumun dərinliyini ölçməyə hesablanmışdır.

Yazıçı Əlibala Məhərrəmzadənin qələmə aldığı "Çovdar çörəyi" romanında ata faciəvi şəkildə dünyasını dəyişmiş oğlunun ölümündə müqəssir tapmağa çalışır. Və oğlu barədə dəhşətli həqiqətlərlə üz-üzə gəlir...

Təqdimat mərasimində Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov, Energetika İnstitutunun direktoru Arif Həşimov, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi və başqaları çıxış etdilər.

Tədbirin sonunda kitabın müəllifi, professor Əlibala Məhərrəmzadə çıxış edərək yaradıcılığı ilə bağlı gələcək planlarından danışdı.

**Q.TƏYYAROĞLU,**
**"Respublika".**

# Ölkələrimiz arasında mədəni əlaqələr genişlənir

**Udmurt Respublikasının Milli Kitabxanası 100 illik yubileyini qeyd etdi. 7-9 noyabr 2018-ci il tarixlərində İjevsk şəhərində Udmurt Respublikası Hökumətinin dəstəyi ilə Milli Kitabxananın yubiley tədbirləri çərçivəsində beynəlxalq iştirakla "Kitabxanalar Rusiya, yaxın və uzaq xarici ölkələr xalqlarının mədəniyyətlərarası əlaqələrin strukturunda" regionlararası elmi-praktik konfrans təşkil olunmuşdur.**

Konfrans iştirakçılarını və qonaqları mədəniyyət və turizm naziri V.M.Solovyov, milli siyasət naziri L.N.Buranova, Avrasiya Kitabxana Assambleyasının Baş direktoru Q.A.Raykova, Udmurt Respublikası Dövlət Şurasının elm, təhsil, mədəniyyət, milli, gənclər siyasəti və idman üzrə Daimi Komissiyasının sədri, "YEDİNAYA ROSSİYA" deputat fraksiyasının üzvü, "Удмурт Кенеш" Ümumudmurt assosiasiyasının prezidenti T.V.İşmatova salamladılar.

B.N.Yeltsin adına Prezident kitabxanasının nümayəndəsi, pedaqoji elmlər namizədi M.V.Steqayeva "Milli elektron resursun formalaşdırılması — Prezident kitabxanasının təcrübəsi" haqqında məruzə ilə çıxış etdi.




Sonra söz çıxış üçün Bakı şəhəri Yasamal rayon MKS-in direktoru, YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan komitəsinin sədri, "ELNİT" Beynəlxalq Kitabxana Assosiasiyasının İdarə Heyətinin üzvü, tarix elmləri doktoru L.A.Məmmədovaya verildi. O, Milli Kitabxanaya Azərbaycan müəlliflərinin yeni kitablarını hədiyyə etdi. L.Məmmədovanın "Müasir kitabxanalar: rəqəmsal zəmanəsinin problemlərinə cavab" məruzəsi böyük maraqla dinlənildi. Məruzəçi Azərbaycan kitabxanalarının respublikanın əhalisinə təqdim etdikləri Azərbaycanın milli-mədəni və tarixi irsinin rəqəmsallaşdırılmasından, biliklər cəmiyyətinin Azərbaycan modelindən, ölkədə informasiya cəmiyyətinin formalaşdırılması xüsusiyyətlərindən, informasiya xidmətinin inkişafından danışdı. Məruzədə respublikanın kitabxana-informasiya sahəsinə dövlət qayğısına, ölkədə əsrlərlə formalaşıb inkişaf etmiş multikultural, tolerant mühitə xüsusi yer verilmişdir.

Konfransda müasir mərhələdə kitabxana fəaliyyətinin digər aktual məsələləri də müzakirə olunmuşdur. Onların arasında beynəlxalq əməkdaşlıq və beynəlxalq kitab mübadiləsi məsələləri ön plana çəkilmişdir. Bu problemlərə "Beynəlxalq kitab mübadiləsi" mövzusunda "dəyirmi masa" həsr olunmuşdur. Məsələ ilə bağlı "Beynəlxalq kitab mübadiləsi: MDB ölkələrinin milli kitabxanalarında həyata keçirmə təcrübəsi" məruzəni Avrasiya Kitabxana Assambleyasının Baş direktoru Q.A.Raykova etmişdir. Məruzədə qeyd olunmuşdur ki, Azərbaycan Milli Kitabxanası 51 dövlətin, o cümlədən 9 MDB ölkələrinin 65 kitabxanası ilə əlaqələr yaratmışdır. Nəticədə, 2018-ci ilin 10 ayında kitabxanaya 3354 kitab daxil olmuş, onlardan 211-i MDB ölkələrinin kitabxanalarından olmuşdur. Sənədlərin elektron çatdırılması (SEÇ) məsələsi aparılan diskussiyanın əsas predmetinə çevrilmişdir.

Yubiley tədbirlərində Udmurt Respublikasındakı "Dostluq" Azərbaycan İctimai Mərkəzinin sədri, Udmurt Respublikasının xidmət sahəsinin Əməkdar işçisi Zülfüqar Mirzəyev də iştirak etmişdir.

Yubiley konfransının təntənəli açılışında Udmurt Respublikasının mədəniyyət və turizm naziri V.M.Solovyov Azərbaycan Respublikasının mədəniyyət naziri Ə.Qarayevə beynəlxalq mədəni əməkdaşlığın möhkəmlənməsində xidmətinə görə təşəkkürnamə (Taukaron) vermişdir.

**Əli SADIQOV,**
**"Respublika".**

# Futbol üzrə Azərbaycan yığması Farer Adaları komandasının qapısından iki cavabsız top keçirib

## 624 ötürmə, 2 qol və 3 xal

**Noyabrın 17-də futbol üzrə Azərbaycan yığması UEFA Millətlər Liqasının D liqasının üçüncü qrupunda keçirdiyi növbəti oyununda Bakı Olimpiya Stadionunda Farer Adaları yığması ilə qarşılaşıb.**

AZƏRTAC xəbər verir ki, ilk dəqiqələrdən üstünlüyü ələ alan Azərbaycan yığması rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Qarşılaşmanın 18-ci dəqiqəsində Azərbaycan millisinin üzvü Dmitri Nazarov müdafiəçilərin uzaqlaşdırdığı topu qüvvətli zərbə ilə qapıdan keçirib - 1:0. Matçın 27-ci dəqiqəsində Azərbaycan yığması hesab arasındakı fərqi iki topa çatdırıb. Mahir Mədətovun təxminən 30 metrdən vurduğu zərbə dəqiq olub - 2:0. Qarşılaşmanın ilk hissəsi bu hesabla başa çatıb.

Fasilədən sonra millimiz üstün oyun nümayiş etdirməsinə baxmayaraq, hesab dəyişilməyib.







Beləliklə, Azərbaycan milli komandası UEFA Millətlər Liqasında doğma meydanda ilk, turnirdə isə ikinci qələbəsini qazanıb. Oyun ərzində üstün oyun nümayiş etdirən Azərbaycan milli komandası qarşılaşma boyu 624 ötürmə verib, rəqib isə 325 ötürmə ilə kifayətlənib.

Qrupun paralel keçən digər oyununda Kosovo seçməsi səfərdə Malta yığmasını 0:5 hesabı ilə məğlub edib.

Qeyd edək ki, beş turdan sonra Qurban Qurbanovun yetirmələri 9 xalla qrupda ikinci pillədə qərarlaşıblar. Kosovo 11 xalla birinci, Farer Adaları 4 xalla üçüncü, Malta isə 2 xalla sonuncu yerdədir.

**AZƏRTAC**




### ❑ BMT TƏHLÜKƏSİZLİK ŞURASI TƏCİLİ TOPLANTI KEÇİRİB



BMT-nin Təhlükəsizlik Şurası İsrailin Qəzzaya yönələn hücumlarının ardından bölgədə zorakılıq və gərginliyin artması ilə əlaqədar təcili toplantı keçirib. Bu barədə "Sputnik" informasiya agentliyi məlumat yayıb.

Fransanın BMT-dəki daimi nümayəndəsi Fransua Delattre toplantıdan öncə jurnalistlərə verdiyi açıqlamada Qəzzadakı vəziyyətin narahatedici olduğunu və 2014-cü ildən bəri belə bir şiddətli hadisənin görünmədiyini vurğulayıb.

Fransua Delattre həmçinin bildirib ki, Fransa "HƏMAS"ın İsrail vətəndaşlarını hədəf alan raket hücumlarını da qınayır. O deyib: "Lakin fələstinlilərə qarşı güc tətbiqi dayandırılmalıdır. İsrailin təhlükəsizliyi müzakirə mövzusu olsa belə, yenə bərabər olmayan gücdən istifadə edilə bilməz. Tərəflər gərginliyin artmasından qaçmalıdır".

Diplomatik mənbələr toplantıda Qəzzadakı böhranın necə həll ediləcəyinə dair bir razılığın hələlik əldə edilə bilmədiyini qeyd ediblər.

Fələstinin BMT-dəki daimi nümayəndəsi Riyad Mənsur ABŞ-ı tənqid edərək deyib: "BMT Təhlükəsizlik Şurasının qapısını, beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək məsuliyyətini yerinə yetirənədək döyməyə davam edəcəyik".

Küveytin BMT-dəki daimi nümayəndəsi Mansour əl-Otaibi İsrailin hücumlarını pisləyərək, Qəzzada getdikcə ağırlaşan humanitar vəziyyətə diqqət çəkib. "Üfüqdə sülh görünmür", - deyə Küveyt təmsilçisi bəyan edib.

Qeyd edək ki, İsrail qırıcıları daha əvvəlki hücumlarında aralarında "Əl-Əksa" televiziyasının da olduğu 6 binanı darmadağın edib. Baş verənlər nəticəsində hər iki tərəfdən həlak olanlar və yaralananlar var.

Bununla yanaşı, yaşanan gərginliklə bağlı İsrail tərəfi də açıqlama verilib. Bildirilib ki, Qəzzadan atılan raketlər 30 israillinin xəsarət almasına səbəb olub. Həmçinin vurğulanır ki, Aşkelon bölgəsində bir binaya tuş gələn raket zərbəsi nəticəsində bir İsrail vətəndaşı həyatını itirib, digəri ağır yaralanıb.

### ❑ FRANSALI NAZİRDƏN ÇAĞIRIŞ: AVROPA İMPERİYASI YARADAQ



Fransanın maliyyə naziri Bruno le Mer Avropanı ABŞ və Çinə bənzəyən "imperiya"ya çevirmək barədə çağırış edib. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, Bruno le Mer bu çağırışı "Handelsblatt" qəzetinə müsahibəsində səsləndirib.

Maliyyə nazirinin fikrincə, bu imperiya hüquqi dövlət prinsiplərini rəhbər tutan sülhsevər dövlət olmalıdır. "Avropa artıq öz gücündən istifadə etməyə qorxmamalıdır", - deyə nazir bildirib.

Bruno le Mer həmçinin Avropa İttifaqını ABŞ-ın İrana qarşı "qanunsuz" sanksiyalarından qorumaq və "Donald Tramp hakimiyyətinin yolunu kəsmək" zərurətinin vacibliyini vurğulayıb. "Söhbət ondan gedir ki, ABŞ-a konkret demək lazımdır: biz suveren qitəyik və kiminlə ticarət edəcəyimizə özümüz qərar verəcəyik", - deyə nazir vurğulayıb.

Qeyd edək ki, Fransa prezidenti Emmanuel Makron bir müddət öncə ABŞ-dan asılı olmayan müstəqil "ümumavropa ordusu", həmçinin kibertəhlükəsizlik sistemi yaratmağı təklif etmişdi. O qeyd etmişdi ki, Avropa onun daxilində gedən demokratik proseslərə və kiberməkanına çoxsaylı müdaxilələrlə qarşılaşır. Donald Tramp isə fransalı həmkarının bu təşəbbüsünə sərt reaksiya vermişdi.

Avropalı siyasətçilər vaxtaşırı Avropa İttifaqının vahid ordusunu yaratmaq təklifləri ilə çıxış edirlər. Belə ki, büdcə məsələləri üzrə Avropa komissarı Günter Ettinger bəyan edib ki, o, "Avropada və xarici missiyalarda demokratiya, insan hüquqları və azadlıqlarının dəstəklənməsində birgə məsuliyyət daşıyan" ordunun qurulmasını arzulayır.

### ❑ ƏRƏB DÜNYASININ HƏR İL 230 MİLYARD DOLLARA EHTİYACI VAR



Livanın qeyri-hökumət təşkilatı "Ərəb Ekologiya və İnkişaf Forumu" ərəb bölgəsinin davamlı inkişaf məqsədini reallaşdırmaq üçün hər il 230 milyard dollara ehtiyacı olduğunu bildirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

"Ərəb Ekologiya və İnkişaf Forumu" ərəb ölkələrində davamlı inkişafın maliyyələşdirilməsi mövzusundakı illik hesabatını Livanın paytaxtı Beyrutda təşkil edilən konfransda ictimaiyyətlə bölüşüb.

Ərəb ölkələrinin davamlı inkişafına nail olmaq üçün illik 100 milyard dollardan artıq maliyyə kəsiri olduğu bildirilən hesabatda bölgədə 2011-ci ildən bu yana davam edən müharibə və münaqişələr səbəbindən dəyən iqtisadi zərərin təxminən 900 milyard dollar olduğu qeyd edilir.

Eyni zamanda, bölgə ölkələrindəki korrupsiya hallarının da hər il 100 milyard dollar zərərə yol açdığı vurğulanan hesabatda ərəb dünyasında dövlət və özəl maliyyə mənbələrinin azaldığına diqqət çəkilib.

Digər tərəfdən, konfransa qatılan Livanın sabiq baş naziri Fuad Sinyora ərəb dünyasında sistematik bir tənəzzül olduğunu vurğulayıb. Fuad Sinyora bu tənəzzülün dayandırılaraq bütün səyin bölgədə mövcud olan enerji, təbii və iqtisadi ehtiyatlardan istifadəni uyğun hala gətirəcək islahat prosesinə yönləndirilməsinə çağırıb.

Məlumat üçün qeyd edək ki, regional bir qeyri-hökumət təşkilatı olan "Ərəb Ekologiya və İnkişaf Forumu" ərəb dünyasında ekologiya siyasətini və proqramlarını inkişaf etdirmək üçün qeyri-hökumət təşkilatları, işgüzar dairələri, mütəxəssisləri və alimləri bir araya gətirir.

---

**Lənkəran Şəhər İcra Hakimiyyəti Lənkəran şəhərində 148 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi üzrə təkliflər sorğusu elan edir. Sənədlərin qəbulu 21.11.2018-ci il tarixə qədər aparılır.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti

### BİLDİRİŞ

Lot 1 - Kompleks monitorinq laboratoriyasının yaradılması ilə əlaqədar modul tipli laboratoriya binasının alınması və quraşdırılması işlərinin, analitik tədqiqatlar laboratoriyaları üçün cihaz və avadanlıqların, müxtəlif inventar və reaktivlərin satın alınması, Lot 2 - Nəqliyyat vasitələrinin satın alınması üzrə Açıq Tender elanının müddətinin uzadılması ilə əlaqədar "Respublika" qəzetinin 17 noyabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş bildirişdə "Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf Mühitin Mühafizəsi Departamenti" sözləri "Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti" sözləri ilə əvəz edilsin.

**Tender Komissiyası.**

---

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi aşağıda nömrələri sadalanan kassa mədaxil qəbzlərinin itdiyini bildirir:

| S/N | Alınma tarixi | Seriya nömrəsi | Sayı |
|---|---|---|---|
| 1 | 2013 | BŞF843801-848816 | 5016 |
| 2 | | BŞF843901-850600 | 1700 |
| 3 | | BŞF852632-850640 | 9 |
| 4 | | BŞF850681-850682 | 2 |
| 5 | | BŞF850699 | 1 |
| 6 | | BŞF850741-850742 | 2 |
| 7 | | BŞF850745-850763 | 19 |
| 8 | | BŞF850779 | 1 |
| 9 | | BŞF850781-850782 | 2 |
| 10 | | BŞF850798 | 1 |
| 11 | | BŞF850801-852100 | 1300 |
| 12 | | BŞF852107 | 1 |
| 13 | | BŞF852163 | 1 |
| 14 | | BŞF852182-852183 | 2 |
| 15 | | BŞF852185-852191 | 7 |
| 16 | | BŞF852193 | 1 |
| 17 | | BŞF852195-852196 | 2 |
| 18 | | BŞF852200 | 1 |
| 19 | | BŞF852202 | 1 |
| 20 | | BŞF852224-BŞF852225 | 2 |
| 21 | | BŞF852228 | 1 |
| 22 | | BŞF852320-852324 | 5 |
| 23 | | BŞF852340 | 1 |
| 24 | | BŞF852366-852379 | 14 |
| 25 | | BŞF852381 | 1 |
| 26 | | BŞF852388 | 1 |
| 27 | | BŞF852390-852391 | 2 |
| 28 | | BŞF852395 | 1 |
| 29 | | BŞF852397 | 1 |
| 30 | | BŞF852402 | 1 |
| 31 | | BŞF852408-852410 | 3 |
| 32 | | BŞF852412 | 1 |
| 33 | | BŞF852417-852423 | 7 |
| 34 | | BŞF852453-852457 | 5 |
| 35 | | BŞF852467 | 1 |
| 36 | | BŞF852474-852475 | 2 |
| 37 | | BŞF852479-852480 | 2 |
| 38 | | BŞF852483 | 1 |
| 39 | | BŞF852485-852486 | 2 |
| 40 | | BŞF852488-852500 | 13 |
| 41 | | BŞF852519-852524 | 6 |
| 42 | | BŞF852532 | 1 |
| 43 | | BŞF852540 | 1 |
| 44 | | BŞF852601-852607 | 7 |
| 45 | | BŞF852658-852659 | 2 |
| 46 | | BŞF852669-852670 | 2 |
| 47 | | BŞF852673 | 1 |
| 48 | | BŞF852727-852734 | 8 |
| 49 | | BŞF852751-852752 | 2 |
| 50 | | BŞF852754-852755 | 2 |
| 51 | | BŞF852759-852767 | 9 |
| 52 | | BŞF852771-852772 | 2 |
| 53 | | BŞF852783 | 1 |
| 54 | | BŞF852801-855900 | 3100 |
| 55 | | BŞF856901-858000 | 1100 |
| 56 | | BŞF858801-860700 | 1900 |
| 57 | | BŞF860501-861700 | 200 |
| 58 | | BŞF861801-863741 | 1941 |
| 59 | | BŞF863760-863800 | 41 |
| 60 | 2014 | BŞF960001 | 1 |
| 61 | | BŞF960017 | 1 |
| 62 | | BŞF960023 | 1 |
| 63 | | BŞF960040 | 1 |
| 64 | | BŞF960072 | 1 |
| 65 | | BŞF960155 | 1 |
| 66 | | BŞF960159 | 1 |
| 67 | | BŞF960167 | 1 |
| 68 | | BŞF961533 | 1 |
| 69 | | BŞF961550 | 1 |
| 70 | | BŞF961590 | 1 |
| 71 | | BŞF961595 | 1 |
| 72 | | BŞF961908 | 1 |
| 73 | | BŞF962249 | 1 |
| 74 | | BŞF962255-962355 | 101 |
| 75 | | BŞF962553 | 1 |
| 76 | | BŞF963218 | 1 |
| 77 | | BŞF963264 | 1 |
| 78 | | BŞF963408 | 1 |
| 79 | | BŞF963777 | 1 |
| 80 | | BŞF964256 | 1 |
| 81 | | BŞF969186-969200 | 15 |
| 82 | | BŞF969740-969765 | 26 |
| | | CƏMİ BŞF SERİYASI ÜZRƏ | 16624 |
| 83 | 2016 | AEN898120 | 1 |
| 84 | | AEN898979 | 1 |
| 85 | | AEN899342 | 1 |
| 86 | | AEN913060-913062 | 3 |
| 87 | | AEN913208 | 1 |
| 88 | | AEN913235 | 1 |
| 89 | | AEN913342 | 1 |
| 90 | | AEN913367 | 1 |
| 91 | | AEN913369-913370 | 2 |
| 92 | | AEN913413 | 1 |
| 93 | | AEN913537-913540 | 4 |
| 94 | | AEN913699 | 1 |
| 95 | | AEN913750-913751 | 2 |
| 96 | | AEN913777 | 1 |
| 97 | | AEN913822-913823 | 2 |
| 98 | | AEN914021 | 1 |
| 99 | | AEN914049 | 1 |
| 100 | | AEN914069-914071 | 3 |
| 101 | | AEN914130 | 1 |
| 102 | | AEN914133 | 1 |
| 103 | | AEN914172 | 1 |
| 104 | | AEN914187 | 1 |
| 105 | | AEN914209 | 1 |
| 106 | | AEN914228 | 1 |
| 107 | | AEN914400 | 1 |
| 108 | | AEN914470 | 1 |
| 109 | | AEN914541 | 1 |
| 110 | | AEN914640-914643 | 4 |
| 111 | | AEN914658 | 1 |
| 112 | | AEN914694 | 1 |
| 113 | | AEN914927-914940 | 14 |
| 114 | | AEN915123 | 1 |
| 115 | | AEN915144 | 1 |
| 116 | | AEN915156-915157 | 2 |
| 117 | | AEN915159-915164 | 6 |
| 118 | | AEN915241 | 1 |
| 119 | | AEN915282-915283 | 2 |
| 120 | | AEN915314 | 1 |
| 121 | | AEN915340 | 1 |
| 122 | | AEN915350 | 1 |
| 123 | | AEN915356 | 1 |
| 124 | | AEN915385-915395 | 11 |
| 125 | | AEN915410 | 1 |
| 126 | | AEN915432 | 1 |
| 127 | | AEN915440 | 1 |
| 128 | | AEN915442-915476 | 35 |
| 129 | | AEN915479-915480 | 2 |
| 130 | | AEN915523 | 1 |
| 131 | | AEN915526 | 1 |
| 132 | | AEN915595 | 1 |
| 133 | | AEN915625-915626 | 2 |
| 134 | | AEN915682 | 1 |
| 135 | | AEN915738 | 1 |
| 136 | | AEN915960-915961 | 2 |
| 137 | | AEN915970 | 1 |
| 138 | | AEN915973 | 1 |
| 139 | | AEN915982-915983 | 2 |
| 140 | | AEN915986 | 1 |
| 141 | | AEN915991 | 1 |
| 142 | | AEN915996-915997 | 2 |
| 143 | | AEN920342 | 1 |
| 144 | | AEN922297 | 1 |
| 145 | | AEN922986 | 1 |
| 146 | | AEN923922-923929 | 8 |
| 147 | | AEN923948-923950 | 3 |
| 148 | | AEN923957-923964 | 8 |
| 149 | | AEN923973 | 1 |
| 150 | | AEN925003-925005 | 3 |
| 151 | | AEN925020 | 1 |
| 152 | | AEN925066 | 1 |
| 153 | | AEN925079-925080 | 2 |
| 154 | | AEN925082 | 1 |
| 155 | | AEN925114 | 1 |
| 156 | | AEN925124 | 1 |
| 157 | | AEN925136 | 1 |
| 158 | | AEN925147 | 1 |
| 159 | | AEN925161-925162 | 2 |
| 160 | | AEN925168-925169 | 2 |
| 161 | | AEN925172 | 1 |
| 162 | | AEN925300-925301 | 2 |
| 163 | | AEN925308 | 1 |
| 164 | | AEN925384 | 1 |
| 165 | | AEN925553-925555 | 3 |
| 166 | | AEN925560 | 1 |
| 167 | | AEN925564-925570 | 7 |
| 168 | | AEN925600 | 1 |
| 169 | | AEN925722 | 1 |
| 170 | | AEN925724-925728 | 5 |
| 171 | | AEN925752-925755 | 4 |
| 172 | | AEN925786 | 1 |
| 173 | | AEN925792 | 1 |
| 174 | | AEN925845-925847 | 3 |
| 175 | | AEN925880 | 1 |
| 176 | | AEN925911 | 1 |
| 177 | | AEN926001 | 1 |
| 178 | | AEN926004-926005 | 2 |
| 179 | | AEN926106-926107 | 2 |
| 180 | | AEN926271 | 1 |
| 181 | | AEN926302 | 1 |
| 182 | | AEN926304 | 1 |
| 183 | | AEN926306-926315 | 10 |
| 184 | | AEN926322 | 1 |
| 185 | | AEN926400 | 1 |
| 186 | | AEN926402-926409 | 8 |
| 187 | | AEN926455-926456 | 2 |
| 188 | | AEN926458-926461 | 4 |
| 189 | | AEN926463-926464 | 2 |
| 190 | | AEN926466 | 1 |
| 191 | | AEN926469-926470 | 2 |
| 192 | | AEN926486-926487 | 2 |
| 193 | | AEN926489 | 1 |
| 194 | | AEN926498-926502 | 5 |
| 195 | | AEN926504-926505 | 2 |
| 196 | | AEN926512 | 1 |
| 197 | | AEN926514 | 1 |
| 198 | | AEN926532-926535 | 4 |
| 199 | | AEN926545 | 1 |
| 200 | | AEN926551 | 1 |
| 201 | | AEN926574 | 1 |
| | | CƏMİ AEN seriyası üzrə | 273 |
| 202 | 2016 | GNÜ060697 | 1 |
| 203 | 2017 | GNÜ110040 | 1 |
| 204 | | GNÜ110077-110078 | 2 |
| 205 | | GNÜ110360-110369 | 10 |
| 206 | | GNÜ110393-110400 | 8 |
| 207 | | GNÜ110511 | 1 |
| 208 | | GNÜ110520 | 1 |
| 209 | | GNÜ110746 | 1 |
| 210 | | GNÜ110773 | 1 |
| 211 | | GNÜ111243 | 1 |
| 212 | | GNÜ111312 | 1 |
| 213 | | GNÜ111400 | 1 |
| 214 | | GNÜ111896 | 1 |
| 215 | | GNÜ112040 | 1 |
| 216 | | GNÜ112042 | 1 |
| 217 | | GNÜ112128-112132 | 5 |
| 218 | | GNÜ112325-112326 | 2 |
| 219 | | GNÜ112823-112825 | 3 |
| 220 | | GNÜ112862-112863 | 2 |
| 221 | | GNÜ113097-113098 | 2 |
| 222 | | GNÜ113364 | 1 |
| 223 | | GNÜ113531-113532 | 2 |
| 224 | | GNÜ113534 | 1 |
| 225 | | GNÜ113577 | 1 |
| 226 | | GNÜ113582 | 1 |
| 227 | | GNÜ113607-113608 | 2 |
| 228 | | GNÜ113610 | 1 |
| 229 | | GNÜ113614-113616 | 3 |
| 230 | | GNÜ113620 | 1 |
| 231 | | GNÜ113644 | 1 |
| 232 | | GNÜ113650 | 1 |
| 233 | | GNÜ113655 | 1 |
| 234 | | GNÜ113661-113665 | 5 |
| 235 | | GNÜ113677-113679 | 3 |
| 236 | | GNÜ113686 | 1 |
| 237 | | GNÜ113699-113700 | 2 |
| 238 | | GNÜ113706 | 1 |
| 239 | | GNÜ113716 | 1 |
| 240 | | GNÜ113761-113777 | 17 |
| 241 | | GNÜ113936 | 1 |
| 242 | | GNÜ113948 | 1 |
| 243 | | GNÜ113959 | 1 |
| 244 | | GNÜ113964 | 1 |
| 245 | | GNÜ113985 | 1 |
| 246 | | GNÜ114001 | 1 |
| 247 | | GNÜ114017 | 1 |
| 248 | | GNÜ114239 | 1 |
| 249 | | GNÜ114350 | 1 |
| 250 | | GNÜ114416 | 1 |
| 251 | | GNÜ115010 | 1 |
| 252 | | GNÜ121371 | 1 |
| 253 | | GNÜ122134 | 1 |
| 254 | | GNÜ122391 | 1 |
| 255 | | GNÜ125086 | 1 |
| 256 | | GNÜ125608 | 1 |
| 257 | | GNÜ125642 | 1 |
| 258 | | GNÜ125661 | 1 |
| 259 | | GNÜ126492 | 1 |
| 260 | | GNÜ132176 | 1 |
| | | CƏMİ GNÜ SERİYASI ÜZRƏ | 112 |
| | | YEKUN | 17009 |

Hüseynova Səidə Əli qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən Torpağa verilən MH 0006624 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Abşeron r-nu, Saray qəsəbəsi).

Hüseynov Aydın Fridun oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən Torpağa verilən MH 0006678 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Abşeron r-nu, Saray qəsəbəsi).

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
17.11.2018